Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 251 (7978) ÇƏRŞƏNBƏ, 7 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# İLHAM ƏLİYEVİN AZƏRBAYCANI

## İlham Əliyevdən milli-mənəvi dəyərlərin və milli varlığın qorunub saxlanılmasına növbəti dəyərli töhfə

Prezident fərmanı Azərbaycanın dövlət dilinin saflığının qorunması və işlək mexanizmlərinin təkmilləşdirilməsi baxımından qarşıya daha məsuliyyətli vəzifələr qoyur

**Dünyanın ən qədim və zəngin dillərindən biri olan Azərbaycan dili xalqımızın ana dili olmaqla bərabər, həm də ölkəmizin dövlət dilidir.**

Eyni zamanda, Azərbaycan dili respublikamızda yaşayan bütün xalqların və etnosların, azsaylı xalqların da vahid ünsiyyət dili funksiyasını yerinə yetirir. Azərbaycan dili Azərbaycan xalqının ən böyük milli sərvətidir, zəngin mənəvi xəzinəsidir. Böyük demokrat ədib Cəlil Məmmədquluzadənin sözləri xalqın milli varlığının qorunub saxlanılmasında dil faktorunun rolunun və əhəmiyyətinin zəruriliyini diqqət mərkəzinə çəkir: "Dünyada hər bir kəs üçün sözdən (oxu: dildən - İ.H.) böyük yadigar yoxdur. Zira ki, mal-mülk tələf olub gedir, amma söz qalır".

Xalqın dilinin inkişaf etdirilməsinə, zənginləşdirilməsinə göstərilən diqqət və qayğı onun milli-mənəvi varlığının qorunub saxlanılması və daha da möhkəmləndirilməsi deməkdir. Bu mənada son yarım əsrdə Azərbaycanda ardıcıl olaraq dövlət dili siyasətinin uğurla həyata keçirilməsi xalqın təkamülündə dil faktoruna verilən böyük önəmi qabarıq şəkildə nəzərə çarpdırır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci mərhələsində, konkret olaraq 1978-ci ildə, sərt sovet ideologiyası şəraitində Azərbaycan dilini ölkəmizin Konstitusiyasına dövlət dili kimi həkk etdirməsi zamanına görə əsl qəhrəmanlıq və uzaqgörənlik nümunəsidir. Həmin dövrdə Azərbaycanda ana dili - dövlət dili uğrunda mübarizə milli istiqlal mübarizəsinin ana xəttini təşkil etmişdir.

*Ardı 4-cü səh.*

## O həm cavandır, həm ağsaqqal, həm də güclü

**Ulu öndər Heydər Əliyevin ən böyük arzusu Azərbaycanı azad və müstəqil görmək idi!**

**Elə gördü də!**

**Hətta nəinki gördü, onu bir dövlət kimi məhvolmadan, keçmişdə olduğu təki xanlıqlara parçalanmadan xilas edərək müstəqilliyini əbədiliyə və dönməzliyə çevirdi!**

**Ulu öndər böyük uzaqgörənliklə söylədi: "Azərbaycan dünyaya bir Günəş kimi doğacaqdır!"**

Doğrudur, vəfasız ömür onun Günəş kimi doğan Azərbaycanı görməsinə imkan vermədi!

Amma bu uzaqgörənlik də həyata keçdi!

**Artıq Azərbaycan dünyaya Günəş kimi doğur!**

*Tanınır, sayılır, seçilir və sevilir!*

*Cavan, ağsaqqal, güclü bir ölkə kimi!*

**Müasir Azərbaycan həm də İlham Əliyevin Azərbaycanı sayılır!**

**Çünki onu bu səviyyəyə, indiki imicinə Prezident İlham Əliyev 15 illik fəaliyyəti sayəsində ucaldıb.**

❖ ❖ ❖

*İlham Əliyevin yeni inkişaf mərhələsinə yüksəltdiyi Azərbaycan çox cavandır - cəmi 27 yaşı var.*

*Həm də Ağsaqqaldır!*

*Yaşına görə yox! Ulular demiş: saqqalın ağlığı ağsaqqal deyil, ağılın ağlığı ağsaqqal olur!*

**Azərbaycan gördüyü işlərə, irəli sürdüyü təşəbbüslərə, gerçəkləşdirdiyi ideyalara, həyat vəsiqəsi verdiyi transmilli layihələrə, ən çətin məqamlarda atdığı hesablanmış addımlara görə müdrikdir, Ağsaqqaldır!**

Müdriklik yaşla deyil!

Müdriklik yalnız təcrübə də deyil!

Müdriklik elmli olmaqla da ölçülmür!

Müdriklik - ən əvvəl ağıldır, Allahın qismət etdiyi xarizmadır!

*Müdriklik verilən məsləhət və tövsiyələrdə, qəbul edilən qərarlarda görünə bilir.*

*Amma təsdiqini əməli işdə, nail olunan nəticələrdə göstərir!*

Gənc Azərbaycan niyə həm də müdrik və ağsaqqal sayılır?

Ötən 15 ildə görülən işlərə, qazanılan uğurlara, qloballaşan dünyanın problemlərinin həllinə verdiyi töhfələrə nəzərən bu suala cavab verməyə çalışaq.

❖ ❖ ❖

**Dünya dağılır, qana çalxalanır, insanlar rahatlıqlarını, ev-eşiklərini, həyatlarını itirirlər...**

**Demokratiya adı altında müxtəlif rəngli və rəmzli "inqilablar" keçirilir, ölkədaxili sabitlik pozulur, vətəndaş itaətsizliyi və qarşıdurmalar baş alıb gedir...**

Ölkələr parçalanma həddinə çatdırılır, müxtəlif üsul və vasitələrlə ərazilər işğal edilir, terror aktları müntəzəm xarakter alır, terrorçular fərqli formada və adlar altında maliyyələşdirilir, müdafiə olunurlar...

Yaşamağa evi, yeməyə çörəyi, işləməyə işi olmayanlar, qaçqına çevrilərək qocalı, qadınlı, uşaqlı firavan dövlətlərə üz tutur, hərdən dənizdə boğularaq balıqlara yem olur, çatdıqları ölkələrdə isə tikanlı məftillərlə, itlərlə qarşılanır, it yerinə qoyulmur, "miqrant" adı verilərək gözümçıxdıya salınırlar...

*Müasir dünyanın real mənzərəsi belədir!*

*Gəl belə dünyada baş çıxar görüm!*

Ölkələrdə sabitliyin pozulmasının əsas səbəbləri sosial ədalətə əməl olunmaması, milli və dini ayrı-seçkilik, ksenofobiya, ikili standartların mövcudluğu və digər amillərdir.

Ölkədaxili ziddiyyətlərə son qoymaq, sabitlik və əmin-amanlıq yaratmaq üçün bu sahədə uğur qazananlardan öyrənmək də vacibdir!

**İlham Əliyev Azərbaycan xalqının əsrlər boyu yaradaraq yaşatdığı, gündəlik həyat normasına və mənəvi dəyərə çevirdiyi multikulturalizm və tolerantlıq ənənələrini mükəmməl modelə çevirərək dünyaya təqdim edir.**

Bu modelin çox sadə fəlsəfəsi var: insanlar milliyyətindən və dinindən asılı olmayaraq bir-birlərinə, hər xalqın mənəvi dəyərinə, dini inancına hörmətlə yanaşmalı, dözümlü münasibət göstərməli, birlikdə sevinib kədərlənməyi, əl-ələ verərək dövlətin qüdrətlənməsi, vətənin çiçəklənməsi naminə mehribanlıqla yaşamağı və işləməyi öyrənməli, bacarmalıdırlar!

*Onda ölkədə sabitlik və əmin-amanlıq, firavanlıq olur!*

*Azərbaycanda olduğu kimi!*

❖ ❖ ❖

**Azərbaycan sivilizasiyalararası qarşıdurmanı əməkdaşlığa çevirməyə çağırır!**

**Həm də təkcə çağırmır, bu işə öz töhfələrini verir!**

*İlk növbədə islam həmrəyliyinin vacibliyini, islam dövlətlərinin bir-birinə əl uzatmasını, ziddiyyət və fikir ayrılıqlarından əməkdaşlığa keçərək mehriban münasibətlər qurmasını vacib sayır, təşəbbüslər göstərir.*

Qoca Avropa ilk idman oyunlarının keçirilməsini cavan Azərbaycana etibar etdi!

Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı və məharəti sayəsində I Avropa Oyunları çox böyük uğurla baş tutdu!

Həm də bu oyunların ən yüksək standartları müəyyənləşdirildi!

Ardınca Azərbaycan İslam Həmrəyliyi Oyunlarının sönməkdə olan məşəlini yenidən gur yandırdı!

**Azərbaycanın ağsaqqallığı ilə keçirilən bu möhtəşəm idman tədbirlərində bir sıra ölkələrin dövlət başçıları, liderləri, tanınmış siyasi, ictimai, idman xadimləri bir masa, bir süfrə arxasında oturaraq ünsiyyət qurdular, fikir mübadiləsi apardılar, soyuqluq buzunu əritdilər.**

Sonra Azərbaycan Prezidenti cənab İlham Əliyev "2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi ili" elan edərək başladığı bu vacib və xeyirxah missiyanı davam etdirdi.

*Belə bir təşəbbüs və əməkdaşlıq nümunəsi göstərir ki, artıq Azərbaycan təkcə bütün islam dövlətləri ilə qarşılıqlı maraqlara və sınaqdan çıxmış ənənələrə əsaslanan dostluq və əməkdaşlıq münasibətləri yaratmaqla, onu ildən-ilə daha da inkişaf etdirməklə kifayətlənmir, həm də islam dövlətləri arasında sülh və mehribanlıq yaratmaq yönündə yorulmadan fəaliyyət göstərən liderə çevrilir.*

*Ardı 2-ci səh.*



## Azərbaycanın yeni silahı

HP-7,62 tipli hücum pulemyotunun seriyalı istehsalına başlanılıb

**Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan 7,62x54 mm. çaplı HP-7,62 tipli hücum pulemyotunun seriyalı istehsalına başlanılıb.**

Cari ilin sentyabrında Azərbaycanda keçirilmiş "ADEX-2018" üçüncü Beynəlxalq müdafiə sərgisində nümayiş etdirilmiş, iştirakçılar və ziyarətçilər tərəfindən böyük maraqla qarşılanmış hücum pulemyotu yerli mütəxəssislər tərəfindən hazırlanmış və sınaqları uğurla başa çatdırılmışdır.

*Ardı 3-cü səh.*

## Erməni mediası: "Ermənistanı İlham Əliyev qarşısında kim məğlub duruma saldı?"

Azərbaycan Prezidentinin Ağdamdan verdiyi bəyanatı geniş müzakirəyə çıxaran erməni KİV və sosial şəbəkə istifadəçiləri Paşinyanla Sarkisyandan hesab sorurlar

**Həyata keçirdiyi işğal siyasəti Ermənistana getdikcə daha baha başa gəlməkdədir. Çünki hər keçən gün Ermənistana siyasi, hərbi, iqtisadi, diplomatik müstəvidə böyük zərbələr dəyir, işğalçı ölkə daha ağır duruma düşür.**

O da birmənalı həqiqətdir ki, Ermənistanda Serj Sarkisyan iqtidarının devrilməsində bu amillər, Azərbaycanın həyata keçirdiyi təcrid siyasəti əsas rol oynadı. Aydındır ki, Nikol Paşinyan hökuməti bundan nəticə çıxarmasa, elə onu da eyni aqibət gözləyir.

*Ardı 5-ci səh.*

## İki Ağdam

Biri ağ günlərini yaşayır, digəri qara günlərdən xilasını gözləyir



**Dövlət başçısının Ağdama növbəti səfəri həm bütün ölkə, həm də ayrı-ayrılıqda hər birimiz üçün işgüzar olduğu qədər də rəmzi məna kəsb edir.**

İlham Əliyev bu bölgəyə sonuncu səfərinin məramını Qarabağ xalçaçıları ilə görüşündə belə izah etdi: "Bu gün Ağdamda, Quzanlıda möhtəşəm Muğam Mərkəzi açıldı. İndi xalça fabriki açılır. Bu gün Ağdam Atçılıq Mərkəzinin də açılışı olacaq. Ona görə biz Ağdamı dünyada məşhur edən bu üç istiqamət üzrə bu gözəl tədbirləri bir gündə keçiririk".

Muğam hər birimizin mənəvi və ruhi qidasıdır. Muğam Mərkəzinin Ağdamda açılışı Bakıda, Ağcabədidə, Füzulidə yaradılan muğam mərkəzlərinin bir ideya kimi davamıdır. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr bizə muğamı musiqi tacımız kimi ucalıqlara qaldırmağa imkan verdi. Bu mənada 2003-cü ildə UNESCO-nun həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etməsi təsadüfi deyil.

Cəbhə bölgəsində belə bir musiqi mərkəzinin yaradılması Azərbaycan xalqının sülhsevərliyinin bariz nümunəsidir. Qarabağ atlarının şöhrətini geri qaytarmaq, erməni işğalçılarının qazdığı səngərlərin bir neçə addımlığında Muğam Mərkəzi yaratmaq, Xalça fabriki açmaq, abad yol salmaq - bütün bunlar Azərbaycanın sülhsevərliyinə işarədir.

*Ardı 3-cü səh.*





# İLHAM ƏLİYEVİN AZƏRBAYCANI

## O həm cavandır, həm ağsaqqal, həm də güclü

*Əvvəli 1-ci səh.*

Bəli, Azərbaycan müdrik ağsaqqal kimi irəli duraraq barışmaz düşmənə çevrilməkdə olan dövlətləri bir masa arxasında əyləşdirməyə, sülhə gətirərək əməkdaşlıq yoluna gətirməyi bacarır!

Yəqin ki, Türkiyə ilə Rusiya arasında baş verən təyyarə qalmaqalını heç kəs unutmayıb. Bu iki qonşu dövlət (həm də dəfələrlə bir-birilə müharibə etmiş dövlətlər) yenə hərbi toqquşmaya doğru gedirdilər.

Əgər Azərbaycanın sülhpərvər missiyası olmasaydı...

**Prezident İlham Əliyev böyük diplomatik səylər göstərərək alovu söndürməyi, Azərbaycanla və bir-birlərilə qonşu olan iki nəhəng dövləti sülhə yönləndirməyi bacardı!**

*Bu gün həm Türkiyə, həm də Rusiya o qədər də asan olmayan günlərini yaşayırlar.*

*Həm də əməkdaşlıq edirlər!*

*Azərbaycanın köməyi ilə yaradılan bu əməkdaşlıq hər iki dövlətə fayda gətirir, çətinlikləri dəf etmələrində kara gəlir.*

**Əgər silaha əl atsaydılar, onda həm özlərinin, həm də bölgənin vəziyyəti necə olardı?!**

**Sülhpərvərlik də elə budur!**

❖ ❖ ❖

**Əməkdaşlığın yeni formatlarının yaradılması da uzaqgörənlik nümunəsidir.**

*Həm çar Rusiyasının, həm də SSRİ-nin tərkibində olarkən Azərbaycan öz təbii sərvətlərinə əsl sahiblik edə bilməyib. Daha çox "adı mənim, dadı sənin" prinsipi ilə hərəkət edib.*

Yalnız həqiqi dövlət müstəqilliyi qazanıldıqdan, ulu öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıdaraq "Əsrin müqaviləsi"nin imzalanmasını təmin etdikdən sonra bu mümkün oldu!

**Həm də Azərbaycan tarixində ilk dəfə olaraq karbohidrogen ehtiyatlarının qeyri-ənənəvi yolla dünya bazarına çıxarılmasına başlanıldı!**

Uzun sürən mübarizədən və danışıqlardan sonra Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri həyat vəsiqəsi qazandı!

Beləliklə, yeni bir əməkdaşlıq formatının - Azərbaycan-Gürcüstan, Azərbaycan-Türkiyə əməkdaşlığının təməli qoyuldu.

Daha sonra bu əməkdaşlıq Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars layihələrinin gerçəkləşdirilməsilə daha da möhkəmlənərək inkişaf etdi, hər üç tərəfə böyük faydalar gətirdi!

**Son dövrlərdə Prezident İlham Əliyevin fəaliyyəti və uzaqgörənliyi sayəsində bölgədə əməkdaşlığın yeni formatları da yaranmışdır.**

*Azərbaycan-Türkiyə-Rusiya birgə əməkdaşlığı, eyni zamanda, yaranmış çətinliklərin birlikdə aradan qaldırılmasına xidmət edir.*

Azərbaycan Türkiyə ilə müstəqilliyə qədəm qoyduğu ilk illərdən sıx əlaqələr qurmuşdur.

Bir millət - iki dövlət formulu ilə ifadə olunan bu strateji tərəfdaşlıq hər iki ölkə üçün faydalı və perspektivlidir.

Rusiya ilə Azərbaycanı çoxəsrlik əlaqə və münasibətlər birləşdirir. Bir sıra sahələri əhatə edən bu əməkdaşlıq daim yüksələn xətlə inkişaf edir.

**Azərbaycan-Türkiyə-Rusiya əməkdaşlıq formatı isə yenidir, davamlı olacağı gözlənilir və bütün tərəflərin maraqlarını təmin edir!**

❖ ❖ ❖

İran ən yaxın qonşumuzdur və bir çox dəyərləri bölüşürük.

Rusiya-İran münasibətlərində son illər bir canlanma müşahidə olunmaqdadır.

Azərbaycan da qardaş İranla çoxtərəfli əlaqələrə malikdir.

*Azərbaycan-Rusiya-İran formatı isə tamamilə yenidir, birgə maraqlara söykənir.*

*İlham Əliyevin uzaqgörənliyi və konkret əməli fəaliyyəti nəticəsində yaranan bu format qısamüddətli deyil, həm də uzaq gələcəyə hesablanıb.*

**Bu yeni formata həyat vəsiqəsi verən sənəd paytaxt Bakıda, təntənəli şəraitdə imzalandı!**

**Hər iki qonşu dövlətin başçıları Azərbaycana gələrək İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə baş tutan əməkdaşlığın yeni formatına öz dəstəklərini nümayiş etdirdilər, imzaları ilə start verdilər!**

❖ ❖ ❖

**İlham Əliyev həm də zamanı qısaltmağı, "uzağı yaxın etməyi" bacaran liderdir!**

Böyük İpək yolunun bərpası təkcə xeyli vaxt və vəsait tələb edən nəhəng layihə deyildi!

Həm də bu istiqamətdə ardıcıl, gərgin, səmərəli və uzaqgörən fəaliyyət göstərilməsini tələb edirdi!

*Bölgəyə, Avrasiyaya böyük fayda gətirəcək bu təşəbbüsə aşkar və gizli əngəl törədənlər də vardı!*

*Ancaq qətiyyət, möhkəm iradə və hər cür çətinlikləri dəf etmək bacarığı hər şeyə üstün gəldi!*

Bakı-Tbilisi-Qars dəmir yolu bu layihənin əsas elementi sayılırdı.

Onun gerçəkləşməsi həm də Ermənistanı birdəfəlik dalana salırdı!

Sülhə gəlməyənin, özgə ərazilərini zəbt edənlərin isə dalanda qalması təbiidir!

**Havadarları BTQ-nin maliyyələşməsinə imkan vermədilər, bununla Azərbaycanı sındıracaqlarını güman etdilər!**

**Lakin cənab İlham Əliyev bu sınaqdan da uğurla çıxmağı bacardı!**

Azərbaycan Bakı-Tbilisi-Qarsı öz hesabına maliyyələşdirməyi və gerçəkləşdirməyi bacardı!

**Bunu İlham Əliyev etdi!**





























**Sonra çox möhtəşəm, yaddaqalan açılış mərasimi keçirildi!**

**"Dəmir atlar" dəmir yolla çapmağa başladılar!**

Beləliklə, zaman və məsafə qısaldı: Çindən Avropa İttifaqına yüklər daha 45 günə deyil, 12-13 günə çatdırılır!

*Bundan dövlətlər də, istehsalçılar da, hətta istehlakçılar da qazanır!*

*Həm vaxta, həm də sərf olunan vəsaitə qənaət etməklə!*

❖ ❖ ❖

**Buna qədər Azərbaycan bir sıra işlər də görmüşdü!**

**Hamısı ölkəmizin xeyrinə!**

**Həm də təkcə ölkəmizin yox!**

Azərbaycan səxavətli dövlətdir, başqalarına fayda gətirməyi, qonşu və əməkdaş dövlətlərin maraqlarını öz maraqlarına uyğunlaşdırmağı da bacarır!

*Bakı-Tbilisi-Qars dəmiryolu Avropa ilə Asiya arasında ən qısa, ən ucuz yoldur.*

*Artıq çox qısa zamanda yükdaşımaların sayı yüz dəfədən də çox artmışdır!*

*Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin işə salınması ölkəmizin önəmini qat-qat artırmışdır!*

*Okeana çıxışı olmayan Azərbaycan beynəlxalq logistika mərkəzinə çevrilmişdir!*

Rəşt-Astara dəmiryolunun çəkilişi "Şimal-Cənub nəqliyyat dəhlizi"nin əhəmiyyətini daha da artıracaqdır.

Maraqlıdır ki, xəttin çəkilişi üçün Azərbaycan İrana 500 milyon dollar kredit vermişdir.

Daha bir maraqlı fakt: 200-dən çox gəmisi olan Azərbaycan Xəzər hövzəsində ən böyük mülki donanmaya sahibdir!

**Dəmir yolu, gəmiçilik sahəsində böyük uğurlara imza atan Azərbaycanın hazırda səmada üç peyki də var - kommersiya və kəşfiyyata xidmət edən peyklər!**

Ən sonuncu fakt: bu günlərdə qardaş Türkiyədə açılışı keçirilən "Star" neftayırma zavoduna 6,3 milyard dollar vəsait qoyan ölkəmiz artıq xaricə sərmayə yatıran ölkə kimi də tanınır!

❖ ❖ ❖

**Prezident İlham Əliyev on beş illik rəhbərliyi dövründə Azərbaycanı yalnız iqtisadi cəhətdən yüksəltməyib!**

**Ölkəmiz mənəvi dəyərlərə önəm verməsi, dünyanın problemlərinin həllində fəal, təşəbbüslərlə iştirakı ilə də diqqəti cəlb edir.**

Azərbaycanın təşəbbüsçüsü və təşkilatçısı olduğu "Bakı prosesi" artıq on yaşını qeyd etdi.

- Dünya dini liderlərinin görüş məkanı paytaxtımız Bakı sayılır!
- İndiyədək burada dörd dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir.
- BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunun da daim baş tutduğu məkan Azərbaycanın paytaxtıdır.

**İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən humanitar tədbirlər bir məqsədə xidmət edir: sivilizasiyalararası, dinlərarası dialoq dərinləşsin, güclənsin, dünyada risklər azalsın, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilsin və bu təhlükəli meyillərin qarşısı alınsın!**

❖ ❖ ❖

Ötən 15 ildə ölkəmiz Avropa və dünya mədəniyyətinə mühüm töhfələr də vermişdir. Onları qısa şəkildə xatırladırıq.

<u>AZƏRBAYCANIN:</u>
- muğam;
- aşıq;
- milli xalçaçılıq sənətləri;

<u>HABELƏ:</u>
- Novruz bayramı;
- "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu;
- Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına salınmışdır.

**Eyni zamanda, Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun xətti ilə vacib aksiyalar icra etmişdir:**

<u>ONLARDAN:</u>
- Pakistanın Müzəffərabad şəhərində qızlar üçün orta məktəb;
- Vyetnamın Ha Giang əyalətinin Giap Trung qəsəbəsində ibtidai məktəb;
- Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda görmə qabiliyyəti məhdud olan uşaqlar və gənclər üçün mərkəz;
- Vatikanda yerləşən Müqəddəs Sebastian katakombaları, Romada Müqəddəs Marçellinio və Pietro katakombaları bərpası;
- Luvr Muzeyinin islam incəsənətinə həsr olunmuş yeni zallarının yaradılmasında iştirak;
- Romanın Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmiri;
- Hindistanın Qoa ştatında stadionun inşası;
- Bosniya və Herseqovinada Təcili Tibbi Yardım Mərkəzi;
- Pakistanın Paxtunva vilayətindəki xəstəxanaya tibbi avadanlıq və təcili yardım avtomobili hədiyyəsi;
- Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı;
- Belçikada Xurşudbanu Natəvanın, Moskvada Mirzə Fətəli Axundzadənin və Romada Nizami Gəncəvinin abidəsinin qoyulmasını və digərlərini göstərmək olar.

❖ ❖ ❖

Bura qədər söylədiklərimiz faktlardır!

**Ancaq baş verənlər beynəlxalq qurum və təşkilatlar tərəfindən də yüksək qiymətləndirilmiş, müxtəlif hesabatlarda və reytinq cədvəllərində öncül yerlərə layiq görülmüşdür.**

Son illərdə dünyanın nüfuzlu qurumları tərəfindən uğurlarımıza verilən qiymətə diqqət yetirək:

- Dünya İqtisadi Forumunun "2016-2017 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 138 ölkə sırasında 37-ci yeri tutub;
- Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda iki pillə irəliləyərək 35-ci yerə yüksəlib;
- Dünya İqtisadi Forumunun illik "İnklüziv inkişaf indeksi - 2018" hesabatında inkişaf etməkdə olan ölkələr arasında 3-cü yerə layiq görülüb;
- 2018-ci ildə Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı" tamamilə yeni metodologiya əsasında hazırlanıb. Bu hesabatda Azərbaycan dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi vurğulanıb;
- Həmçinin Azərbaycan əhalinin elektriklə təchizatı səviyyəsinə görə maksimal 100 faiz bal almaqla dünyada ilk pilləyə yüksəlib;
- Azərbaycan dünyanın 140 ölkəsi arasında biznesin dinamikliyi reytinqi üzrə 31-ci yerdə qərarlaşıb.
- 2016-cı ildə Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2017" hesabatında 65-ci pillədə qərarlaşan Azərbaycan "Doing Business 2018" hesabatında 8 pillə yüksələrək 57-ci yeri tutub;
- 190 ölkənin biznes mühitini qiymətləndirən hesabata əsasən Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri sayılır;
- "Doing Business-2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövlət siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub.
- Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb. Dünyanın bir çox ölkəsini geridə qoymaqla MDB ölkələri arasında lider mövqeyə yüksəlib.

❖ ❖ ❖

**Bu gün Cənubi Qafqaz iqtisadiyyatının 75 faizi Azərbaycanın payına düşür.**

**Beynəlxalq reytinq agentliklərinin açıqladıqları hesabatların əksəriyyətində Azərbaycan iqtisadiyyatının növbəti 3 il ərzində daha da yüksələcəyi bildirilir:**

- Beynəlxalq "Moody,s" agentliyinin son hesabatında göstərilir ki, Azərbaycan iqtisadiyyatı 2019-cu ildə 3 faiz yüksələcək!
- Nüfuzlu "Standart & Poor,s" reytinq agentliyinin də hesabatında göstərilir ki, Azərbaycan iqtisadiyyatı 2018-ci ilə qədər olan dövr ərzində orta hesabla 3 faiz artacaq!
- Beynəlxalq "Fitch Ratings" reytinq agentliyinin ölkəmizdəki sosial və siyasi sabitliklə bağlı açıqladığı proqnozda deyilir ki, Azərbaycanda mövcud olan geniş sosial və siyasi sabitlik davam edəcək!

**Bütün bu uğurların hamısı həm də cənab İlham Əliyevin xidmətləridir!**

**Müstəqil dövlətimizin davamlı şəkildə inkişafını, xalqın rifahını durmadan yüksəldən xidmətlər!**

❖ ❖ ❖

Azərbaycanın dövlət müstəqilliyinin yüzüncü ildönümünü təntənə ilə qeyd etdik!

Bu 100 ilin 27 ili müasir Azərbaycanın payına düşür.

Amma həmin 27 ilin hamısı inkişaf və quruculuğa sərf edilməyib!

**Ulu öndər Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan uğurlar son 15 ildə ən yüksək zirvəyə ucaldılıb!**

Bu gün hər bir Azərbaycan vətəndaşı öz vətəni ilə haqlı olaraq fəxr edir!

Dünyada sözü, izi, yeri və sanbalı olan Azərbaycanla!

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanla!

İlham Əliyevin qurub ucaltdığı Azərbaycanla!

***Bəxtiyar SADIQOV***

## Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə əsasən **qərara alıram:**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 11 nəfərdən ibarət aşağıdakı tərkibi təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri

**Kollegiyanın üzvləri**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavinləri

Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanının rəhbəri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Aparatının rəhbəri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Bakı şəhəri üzrə 1 saylı Regional Bölməsinin rəisi

"Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu" publik hüquqi şəxsin İdarə Heyətinin sədri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Aparatının Qida təhlükəsizliyi şöbəsinin müdiri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinin müdiri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Aparatının İdxal və ixraca nəzarət şöbəsinin müdiri.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 noyabr 2018-ci il*

## H.N.Nəcəfovun Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hüseyn Nizami oğlu Nəcəfov Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 noyabr 2018-ci il*

## F.Ş.Abdinbəyovun Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fərid Şamil oğlu Abdinbəyov Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 noyabr 2018-ci il*

# Azərbaycanın yeni silahı

*Əvvəli 1-ci səh.*

HP-7,62 tipli hücum pulemyotu qısa məsafəli döyüşdə düşmənin canlı qüvvəsini məhv etmək və atəş vasitələrinə zərər vurmaq üçün nəzərdə tutulub.

HP-7,62 tipli hücum pulemyotundan atəş ikiayaqdan və ya müxtəlif konstruksiyalı üçayaqlı və döyüş maşınlarında quraşdırılan dəzgahlardan aparıla bilər. Pulemyotun konstruksiyasında lülə üzərində bərkidilən istilik yayıcı sipər, yeni növ ikiayaq, yanağı və çiyinliyi olan teleskopik qundaq və əl qundağı tətbiq olunub. Əl qundağının aşağı və yan tərəflərində, eyni zamanda, lülə qutusunun qapağı üzərində yerləşən "Pikatinni" tipli tamasalar (NATO-nun MİL-STD-1913 standartına uyğun) müxtəlif növ optik və kollimator tipli nişangahların, həmçinin pulemyotun taktiki imkanlarını artıran döyüş fənəri, əlavə dəstək, lazer hədəfgöstəricisi və digər xüsusi avadanlığın bərkidilməsini təmin edir. Atəş zamanı patronlar pulemyotun qəbuledicisinə tutumu 100, 200 və 250 patron olan səpələnməyən metal lent vasitəsilə ötürülür. Patron lentləri müxtəlif tutumlu patron qutulara yığılır. Pulemyotdan atəş aparmaq üçün 7,62x54 mm-lik adi (LPS), izburaxan (T-46M), zirehdələn-yandırıcı (B-32), yandırıcı-hədəfgöstərici (PZ) güllələi və boş tüfəng patronlarından istifadə olunur.

HP-7,62 tipli hücum pulemyotunun nişangah məsafəsi 1000 metr, uzunluğu 1080 millimetr, atış tezliyi dəqiqədə 650-750 atəş, döyüş atış tezliyi dəqiqədə 250 atəş, çəkisi isə 8,6 kiloqramdır.

Hücum pulemyotu istənilən hava şəraitində ətraf mühitin ±50°C temperatur diapazonunda istismar oluna bilər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# İki Ağdam

## Biri ağ günlərini yaşayır, digəri qara günlərdən xilasını gözləyir

*Əvvəli 1-ci səh.*

İşğalçı Ermənistan isə nasizmin carçıları, ideoloqları sayılan qatillərə abidələr qoyur, faşizmi leqallaşdırır, işğalçılıq ambisiyalarından əl çəkməyəcəyini bəyan edir.

Prezident İlham Əliyevin Muğam Mərkəzinin açılışındakı çıxışında bugünün Ağdamının tarixində çox əlamətdar hadisə olduğunu vurğuladı, mərkəzin açılışında görkəmli muğam ifaçıları, incəsənət xadimləri, rayonun ziyalılarının iştirak etməsinə sevindiyini bildirdi: "Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın muğama göstərdiyi diqqət hesab edirəm ki, bütün cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Biz son illərdə muğamın demək olar ki, dirçəlməsini görürük. Biz əsrlər boyu bu gözəl milli sənətimizi yaşatmışıq, inkişaf etdirmişik, ancaq son illərdə muğamın Azərbaycanda inkişafına çox böyük təkan verildi. Ənənəvi muğam müsabiqələri keçirilir və Azərbaycan televiziyası ilə canlı yayımlanır. Bu müsabiqələrin çox böyük əhəmiyyəti var. Həm gənc nəsil yetişir, həm gənc istedadlar gələcəyə yol tapırlar, həm də muğamın nə qədər gözəl sənət olduğunu bütün Azərbaycan vətəndaşları görür, peyk vasitəsilə dünya da görür. Doğrudan da ənənəvi muğam müsabiqələri çox əhəmiyyətli hadisəyə çevrilmişdir. Həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə ənənəvi olaraq beynəlxalq muğam festivalları da keçirilir".

Dövlət başçısı onu da vurğuladı ki, bizim incəsənətimiz, ədəbiyyatımız milli ruhumuzu daha da yüksək səviyyəyə qaldırır. Sonra da əlavə etdi ki, aprel döyüşləri bizim şanlı tariximiz, böyük tarixi qələbəmizdir, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarında işğal altında olan minlərlə hektar torpaq azad edildi. Bu qələbə onu göstərir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Muğam isə xalqın qələbəyə səsləyən çağırışıdır.

Bu qələbə əzmini qırmaq, zəiflətmək mümkün deyil. Bu baxımdan Prezident İlham Əlievin Muğam Mərkəzindən Ermənistana ünvanladığı mesaj da xüsusi əhəmiyyət kəsb edir. Dövlət başçısı Ermənistanı idarə edən insanların kriminal xunta rejiminin başçıları olduğunu erməni xalqının özünün etiraf etdiyini diqqətə çatdırdı. Onların generalları oğru, qəhrəmanları cinayətkar və qorxaqdırlar: "Ermənistanda bu il baş vermiş dəyişikliklər onların işğalçılıq siyasətinin tam iflası deməkdir, bu, bir. İkincisi, bu hadisələr onu göstərir ki, bizim apardığımız siyasət öz nəticəsini verir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, - bunu heç gizlətməyə də ehtiyac yoxdur, - biz bundan sonra da Ermənistanı bütün regional layihələrdən təcrid edəcəyik, bütün vasitələrdən istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik". Dövlət başçısı bütün ciddiliyi ilə vurğuladı ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki kriminal rejimin səhvlərini təkrarlamamalı, işğal edilmiş torpaqlardan öz qüvvələrini tezliklə çıxarmalıdır.

Son illər Azərbaycanda qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən davamlı islahatlarla əlaqədar ən qədim tətbiqi sənət növlərindən biri olan xalçaçılığa diqqət artıb. Xalçaçılıq tarixən həm Azərbaycan xalqının məişətinin, həm də milli mədəniyyətinin ayrılmaz hissəsidir. Hər bir xalça toxunduğu yerin təbiəti, onu toxuyan insanların dünyagörüşü və inancları ilə bağlı simvolları əks etdirən sənət əsəridir. Bu sahənin inkişafına xüsusi diqqət yetirən Prezident İlham Əliyevin qayğısı sayəsində artıq Horadiz, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı və Lənkəranda xalça müəssisələri istifadəyə verilib. Prezidentin Ağdamda açılışını etdiyi müəssisə isə bu sırada yeddincidir. Ümumilikdə isə 30 xalça fabrikinin tikilməsi nəzərdə tutulub.

Qarabağı dünyaya tanıdan, məşhur edən üç əsas sahə olub. Bu diyar həmişə dünyanın diqqətini özünə Qarabağ xalçası, Qarabağ muğamı və Qarabağ atları ilə cəlb edib. Amma 25 il idi qarabağlılar Qarabağ xalçaları toxumurdu, baxmayaraq ki, evindən, yurdundan didərgin düşəndə özləri ilə xalça dəzgahlarını götürənlər də az olmamışdı. Elə Ağdamın Quzanlı qəsəbəsində yaradılan müəssisənin açılışına görə ağdamlıların Prezidentə və birinci xanıma minnətdar olmalarının əsas səbəbi də bu idi.

Həmin gün Ağdamda üçüncü bir əlamətdar hadisə "Qarabağ Atçılıq Təsərrüfatı" MMC-nin Qarabağ Atçılıq Kompleksinin açılışı ilə bağlı oldu. Azərbaycanın milli sərvəti olan Qarabağ atları sözün əsl mənasında, fəxrimiz və vüqarımız kimi milli qürurumuzun canlı sütunudur. Qarabağda yetişdirilən bu atların şöhrəti vaxtı ilə dünyaya yayılmışdı, XVIII-XIX əsrlər Qarabağ atlarının qızıl dövrü olmuşdu. 1993-cü ildə isə erməni təcavüzündən sonra Qarabağ atları Ağcabədi rayonunun Xamtorpaq ərazisində yerləşdirilmişdi.

Ölkənin müharibə şəraitində olmasına baxmayaraq, Qarabağ atlarını qoruyub saxlamaq üçün bütün zəruri addımlar atılmış, Azərbaycan atlarının şan-şöhrətinin özünə qaytarılması, atçılığın inkişafının təmin olunması üçün 2007-ci ildə "Atçılıq haqqında" qanun qəbul edilmiş, proqram təsdiqlənmişdir. Prezident İlham Əliyev Qarabağ atının genofondunun qorunması, tarixi şöhrətinin özünə qaytarılması məqsədilə bir neçə sərəncam da imzalamışdır. Sonuncu sərəncamla Qarabağ cinsinin damazlıq özəyinin qorunması və inkişaf etdirilməsi, bu sahədə seleksiya damazlıq işlərinin elmi əsaslarla aparılması üçün Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki "Qarabağ Atçılıq Təsərrüfatı" MMC-nin atçılıq kompleksinin tikintisi üçün Prezidentin Ehtiyat Fondundan 2 milyon manat vəsait ayrılmışdır.

İlham Əliyevlə Mehriban xanım Əliyevanın açılışında iştirak etdiyi Qarabağ Atçılıq Kompleksi 35,5 hektar ərazidə inşa edilib. Vaxtilə Qarabağ xanları Pənah xanın, İbrahim xanın, Mehdiqulu xanın, Cəfərqulu xanın, Xurşidbanu Natəvanın və xan zümrəsinə daxil olan digər sülalələrin nümayəndələrinə məxsus müəssisə və tövlələrdə yetişdirilən Qarabağ atları bu gün yenidən şöhrətini özünə qaytarır.

Bəli, biz Dağlıq Qarabağa müqəddəs saydığımız rəmzlərlə ləyaqətlə dönürük. Bunu dünya da, işğalçılıq ambisiyalarından zövq alan Ermənistan da görməlidir. Qarabağ atlarının Cıdır düzünün sinəsində nallarıyla çalacağı Qələbə marşını hamımız səbirsizliklə gözləyirik.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 25 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Qobu Dilağarda, Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Yeni büdcə sosial inkişaf prioritetlərinə cavab verir



Dövlət büdcəsinin son məqsədlərindən biri insanların sosial rifahının yüksəldilməsidir. Azərbaycanın 2019-cu il dövlət büdcəsinin layihəsi ilə tanışlıq da təsdiq edir ki, Prezident İlham Əliyev əhalinin sosial müdafiəsinin gücləndirilməsini diqqət mərkəzində saxlayır.

### Ünvanlı və şəffaf büdcə

Bunu dünən Milli Məclisdə gələn ilin dövlət büdcəsinin müzakirəsinə həsr olunmuş komitələrin birgə iclasında Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli dedi. Azərbaycanda sosial rifah dövlətinin qurulduğunu deyən komitə sədrinin sözlərinə görə, son 15 ildə dövlət büdcəsindən sosial sahəyə ayrılan vəsait davamlı olaraq artırılıb. Gələn ilin büdcə layihəsinin özəlliklərini diqqətə çatdıran Hadi Rəcəbli ünvanlılığın və şəffaflığın təmin olunmasını yüksək qiymətləndirdi. Onu da qeyd etdi ki, növbəti ilin dövlət büdcəsindən sosial xərclərə 8 milyard 265,8 milyon manat vəsaitin ayrılmasının proqnozlaşdırılması bir daha büdcənin sosialyönümlü olmasını göstərir.

Milli Məclisin Əmək və sosial siyasət, Səhiyyə, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil və Mədəniyyət komitələrinin birgə iclasında daha sonra 2019-cu ilin dövlət büdcəsinin layihəsi barədə məlumat verildi. Maliyyə nazirinin birinci müavini İlqar Fəti-zadə bildirdi ki, gələn ilin icmal və dövlət büdcəsi "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq respublikamızın strateji inkişaf prioritetləri, xalqın rifahının daha da yaxşılaşdırılması və digər dövlət əhəmiyyətli məsələlər üzrə qəbul edilmiş proqramların maliyyə təminatı əsas götürülməklə, 2019-cu və sonrakı 3 il üzrə ölkəmizin makroiqtisadi proqnoz göstəriciləri, 2019-2022-ci illərdə gözlənilən iqtisadi meyillər nəzərə alınmaqla hazırlanıb. Xüsusilə qeyd etmək lazımdır ki, 2019-cu ilin həm dövlət, həm də icmal büdcəsi yeni büdcə qaydasının tələbləri gözlənilməklə tərtib olunub. Yeni büdcə qaydası ölkənin xalis maliyyə aktivləri əsasında büdcə ili ərzində xərclənə bilən neft gəlirlərinin və icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması mexanizmini müəyyən edir.

Dövlət və icmal büdcələrinin layihəsi hazırlanarkən qlobal iqtisadiyyatda gedən son meyillərin təhlili aparılıb, onların ölkənin makroiqtisadi göstəricilərinə, büdcənin əsas parametrlərinə ehtimal olunan təsirləri qiymətləndirilib. Çünki dünya iqtisadiyyatında gedən proseslər Azərbaycan iqtisadiyyatı üçün həm müsbət, həm də mənfi təsir imkanlarına malik çağırışlarla səciyyələnən xarici mühit formalaşdırır. Ona görə xarici mühitdə baş verə bilən makroiqtisadi təhdidlərin ölkə iqtisadiyyatına sirayət etməsinin qarşısının alınması 2019-cu ildə həyata keçiriləcək monetar və fiskal siyasətin əsas priortetlərindən biri olacaq.

Gələn il dövlət büdcəsinin gəlirləri 22 milyard 917,5 milyon manat proqnozlaşdırılır. Bu da ÜDM-in 28 faizi həcmindədir. Beynəlxalq maliyyə qurumları tərəfindən növbəti il üçün xam neftin bir barelinin 60-70 ABŞ dolları ətrafında proqnozlaşdırılması və digər qlobal amillər nəzərə alınmaqla 2019-cu ilin dövlət büdcəsinin neft gəlirlərinin hesablanmasında orta ixrac qiyməti 60 ABŞ dolları olmaqla nəzərdə tutulub. Qeyd edək ki, gəlirlərinin 59,8 faizi və ya 13 milyard 700,3 milyon manatı neft sektorunun, 40,2 faizi və ya 9 milyard 217,2 milyon manatı qeyri-neft sektorunun payına düşür. 2018-ci ilin proqnozu ilə müqayisədə neft sektorunun gəlirləri 354,3 milyon manat və ya 2,7 faiz, qeyri-neft sektorunun gəlirləri isə 414,2 milyon manat, yəni, 4,7 faiz çoxdur.

Neft sektoru üzrə büdcə gəlirlərinin 11 milyard 364,3 manatı Dövlət Neft Fondundan transfertlər, 2 milyard 336 milyon manatı vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar təşkil edəcək.

Qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin 4 milyard 980 milyon manatı vergi orqanlarının xətti ilə daxilolmalar, 3 milyard 451,6 milyon manatı Dövlət Gömrük Komitəsindən daxilolmalar, 785,6 milyon manatını isə digər daxilolmalar üzrə formalaşacaq.

### Sosialyönümlülük prioritetdir

2019-cu ilin dövlət büdcəsinin xərcləri ÜDM-də xüsusi çəkisi 30,2 faiz olmaqla 24 milyard 780,1 milyon manat nəzərdə tutulur. Xərclərin tərtibi zamanı ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafının prioritet istiqamətləri, o cümlədən kənd təsərrüfatının stimullaşdırılması, təhsil, səhiyyə, mədəniyyət, idman və fiziki infrastruktur layihələrinin, dövlət borcu və aztəminatlı təbəqələrin sosial müdafiəsinin, dövlətin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin gücləndirilməsi ilə bağlı məsələlərin maliyyə təminatı nəzərə alınıb.

Gələn il cari xərclərə dövlət büdcəsi xərclərinin 50,7 faizi həcmində və ya 12 milyard 554,2 milyon manat, əsaslı xərclərə isə 39,9 faiz həcmində və ya 9 milyard 891,1 milyon manat, dövlət borcuna xidmətlərlə bağlı xərclərə 9,4 faizi həcmində və ya 2334,8 milyon manat vəsait yönəldiləcək.

2019-cu ildə dövlət büdcəsinin xərclərində proqram və məqsədli tədbirlər üçün (əsaslı vəsait xərclər də nəzərə alınmaqla) 10 milyard 314,4 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da 2018-ci illə müqayisədə 2076,9 milyon manat və ya 25,2 faiz çoxdur. Bu xərclər dövlət büdcəsinin xərclərinin 41,6 faizini təşkil edəcək ki, bu da cari ilə nisbətən 14,3 faiz çoxdur.

2019-cu ildə də dövlət büdcəsinin sosialyönümlülüyünün təmin edilməsi, əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi, bir çox mühüm sosial proqramların reallaşdırılması istiqamətində dövlət büdcəsində müvafiq məbləğlərdə vəsait nəzərdə tutulur. Belə ki, 2019-cu ilin dövlət büdcəsinin xərclərində sosialyönümlü xərclərə ümumilikdə 8 milyard 265,8 milyon manat vəsait ayrılacaq. Bu, 2018-ci illə müqayisədə 744,5 milyon manat və ya 9,9 faiz çoxdur. Növbəti ildə sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 33,4 faiz təşkil edəcək.

2019-cu ilin dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi xərcləri üçün 6 milyard 368,4 milyon manat vəsait ayrılıb. Bütövlükdə bu sahələr üzrə nəzərdə tutulmuş xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 25,7 faiz (ÜDM-ə nisbətən 7,8 faiz) təşkil edəcək.

2019-cu ilin dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahələrdə fəaliyyət xərcləri üzrə məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyə təminatı üçün 887,6 milyon manat vəsait proqnozlaşdırılır.

Növbəti ildə elm xərclərinə 133,5 milyon manat vəsait nəzərdə tutulur ki, bu da 2018-ci illə müqayisədə 5,3 milyon manat və ya 4,2 faiz çoxdur. Həmin xərclər fundamental elmi tədqiqatlarla məşğul olan təşkilatların idarə edilməsi, konkret praktiki məqsədlərə nail olmaq üçün yeni biliklərin əldə edilməsi, istifadəsi, qurğuların yaradılması, yeni proseslərin, sistemlərin və xidmətlərin tətbiqi və təkmilləşdirilməsi, qeyri-dövlət elmi tədqiqat təşkilatları tərəfindən həyata keçirilən fundamental tədqiqatlara yardım üzrə xərclərin maliyyələşdirilməsi üçün yönəldiləcək.

Təhsil xərclərinə isə 2 milyard 274,6 milyon manat vəsait ayrılıb. Bu, 2018-ci ilə nisbətən 230,6 milyon manat və ya 11,3 faiz çoxdur. Gələn il təhsil xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 9,2 faiz təşkil edəcək.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov rəhbərlik etdiyi qurumun büdcə layihəsi ilə bağlı rəyini diqqətə çatdırdı. Qeyd etdi ki, Azərbaycanın 2019-cu il üçün dövlət büdcəsinin layihəsi müvafiq qanunvericiliyin tələbləri gözlənilməklə tərtib edilib və təqdim olunub. Büdcənin yeni metodlarla tərtib olunduğunu deyən palata sədrinin sözlərinə görə, bunlar büdcədən səmərəli faydalanmağa xidmət edir. Vüqar Gülməmmədov yekunda qeyd etdi ki, Hesablama Palatası gələn ilin dövlət büdcəsinin layihəsinin Milli Məclisin plenar iclasında müzakirəsini məqsədəuyğun sayır.

### Elm xərclərinin artırılması təklif olundu

Sonra iclasda Milli Məclisin komitə sədrləri layihə ilə bağlı fikirlərini bildirdilər. Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov büdcə layihəsinin sosialyönümlü olduğunu təqdir etdi. Qeyd etdi ki, büdcənin üçdə birinin sosial sahələri əks etdirməsi dövlət başçısının əhalinin sosial müdafiəsinin gücləndirilməsinə olan diqqətinin göstəricisidir.

Komitə sədri səhiyyə sahəsində həyata keçirilən və əsasən müxtəlif xəstəliklərlə mübarizəni əhatə edən proqramların maliyyələşdirilməsi üçün nəzərdə tutulan vəsaitin 53 faiz artırılmasını, icbari tibbi sığorta üçün 240 milyon manatın nəzərdə tutulmasını təqdir etdi. Eyni zamanda, onkoloji xəstəliklərlə bağlı və elm üçün büdcədə nəzərdə tutulan vəsaitlərin artırılmasını təklif etdi.

Əhliman Əmiraslanov onu da bildirdi ki, 2019-cu ilin dövlət büdcəsi layihəsində elm sahəsinə ayrılan vəsait artırılsa da, bu, yenə də çox azdır.

Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli öncə onu qeyd etdi ki, 2018-ci ildə dövlət büdcəsində nəzərdə tutulan xərclər təyinatı üzrə xərclənib. Bütün bunlar ölkəmizin inkişafında özünü göstərir. "Doing Business 2019" hesabatı da Azərbaycanın inkişafını təsdiq edir. Komitə sədri əlavə etdi ki, il ərzində elm və təhsil sahəsində də uğurlar var.

2019-cu ilin dövlət büdcəsinin layihəsindən danışan İsa Həbibbəyli təhsilin müxtəlif istiqamətləri üzrə xərclərin artırılmasını yüksək qiymətləndirdi. Eyni zamanda, ilk dəfə olaraq gələn ilin dövlət büdcəsində azərbaycançılıqla və təhsil qrantları ilə bağlı xərclərin nəzərdə tutulmasını, gənc istedadlar üçün xərclərin artırılmasını dövlət başçısının diqqət və qayğısı kimi dəyərləndirdi.

Təkliflərini diqqətə çatdıran komitə sədri ilk olaraq Azərbaycan Milli Elmlər Akademiyasına ayrılan vəsaitlərin artırılmasını məqsədəuyğun saydı. Elmin sabit qalmadığını, inkişaf etdiyini deyən komitə sədrinin sözlərinə görə, akademiya böyük elmi bazadır və onun fəaliyyətinə dəstək verilməlidir. İsa Həbibbəyli həmçinin müdafiə təyinatlı məhsulların istehsalı işi ilə bağlı AMEA üçün vəsaitin nəzərdə tutulmasını təklif etdi.

### Büdcə layihəsi müsbət tendensiyaları əks etdirir

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı çıxışında bildirdi ki, gələn ilin dövlət büdcəsi layihəsi mükəmməl hazırlanıb. Komitə sədri çoxuşaqlı ailələrə verilən müavinətlərin və 3 yaşınadək uşaqlara verilən müavinətlərin artırılmasını, güzəştli ipoteka şərtlərinin çoxuşaqlı ailələrə də şamil olunmasını, zorakılıq qurbanları üçün "qaynar xətt"lərin yaradılmasını təklif etdi.

Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov büdcənin artımının sevindirici hal olduğunu dedi. Eyni zamanda, komitə sədri dövlət büdcəsindən mədəniyyətə, o cümlədən kinoya ayrılan vəsaitin artırılmasını təklif etdi.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev sosial sahədə aparılan islahatlar, ünvanlı sosial yardım, məşğulluq, əllilik, DOST mərkəzlərinin yaradılması və digər sosial məsələlərlə bağlı görülən işlərdən danışdı.

Mədəniyyət naziri Əbülfəs Qarayev bildirdi ki, 2019-cu ilin dövlət büdcəsinin layihəsi özündə müsbət tendensiyaları əks etdirir. Nazir abidələrin qorunması, muzeylərin, musiqi məktəblərinin, kitabxanaların vəziyyəti ilə bağlı qarşıda dayanan vəzifələr barədə məlumat verdi.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova da bildirdi ki, 2019-cu ilin büdcəsinin layihəsi sosialyönümlüdür. Komitə sədri çıxışında zorakılıq hallarının aşkarlanması ilə bağlı "qaynar xətlər"in yaradılmasının vacibliyini, erkən nikah hallarının qarşısının alınması, çətin vəziyyətdə yaşayan uşaqların sosial müdafiəsi ilə bağlı fikirlərini diqqətə çatdırdı. O cümlədən, diqqəti küçə həyatına məruz qalan, xüsusilə də qaraçı tayfasından olan uşaqların problemlərinə, onların sənədlərinin olmamasına çəkdi.

Daha sonra Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov, deputatlardan Elmira Axundova, Rauf Əliyev, Jalə Əliyeva, Şəmsəddin Hacıyev, Qənirə Paşayeva, Məlahət İbrahimqızı, Asim Mollazadə gələn ilin dövlət büdcəsi ilə bağlı qənaətlərini bölüşdülər, müxtəlif təkliflərlə çıxış etdilər.

Elm və təhsil komitəsinin sədr müavini Bəxtiyar Əliyev bildirdi ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Ağdamda Muğam Mərkəzinin yaradılması xalqımızın, gənclərimizin mənəvi inkişafına çox böyük təkan verəcək. Onun sözlərinə görə, bu addım həm də məcburi köçkünlərə göstərilən diqqət və qayğının nümunəsidir. Ağdam rayonunun ərazisinin 70 faizi işğal altındadır. İnsanlar ön cəbhədə yaşayırlar, amma doğma yurdlarına qayıdacaqlarına inanırlar. Prezident İlham Əliyevin cəbhəyanı bölgələrə hər səfərinin yeni infrastrukturun qurulmasına gətirib çıxardığını deyən Bəxtiyar Əliyev qeyd etdi ki, 190 mindən çox əhalisi olan Ağdam üçün gələcəkdə investisiya fondundan bu istiqamətdə əlavə vəsaitin ayrılması yaxşı olardı.

Deputat Hüseynbala Mirələmov büdcə layihəsinin sosialyönümlü olmasını yüksək qiymətləndirdi. Eyni zamanda, texniki kadr hazırlığı və təhsil haqları ilə bağlı təkliflərini diqqətə çatdırdı.

Sonda maliyyə naziri Samir Şərifov müzakirələrdə səslənən təkliflərə münasibət bildirdi. Gələn ilin dövlət büdcəsi haqqında qanun layihəsi müzakirə olunmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan",***
***Foto AZƏRTAC-ındır***

# İlham Əliyevdən milli-mənəvi dəyərlərin və milli varlığın qorunub saxlanılmasına növbəti dəyərli töhfə

## Prezident fərmanı Azərbaycanın dövlət dilinin saflığının qorunması və işlək mexanizmlərinin təkmilləşdirilməsi baxımından qarşıya daha məsuliyyətli vəzifələr qoyur



*Əvvəli 1-ci səh.*

Ulu öndərin Azərbaycan Respublikasına rəhbərliyinin müstəqillik dövrünü əhatə edən ikinci mərhələsində “Dövlət dilinin tətbiqi işinin təkmilləşməsi haqqında” (18 iyun 2001-ci il), “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında”kı (9 avqust 2001-ci il) sərəncamları yeni tarixi mərhələdə dövlət dili siyasətinin miqyasını daha da genişləndirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 aprel 2013-cü ildə imzaladığı “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı” dövlət dilinin birinci inkişafının proqramı kimi mühüm əhəmiyyətə malikdir. Eyni zamanda Prezident İlham Əliyevin sərəncamları ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı və xarici ölkə ədəbiyyatı nümayəndələrinin böyük tirajla nəşr edilib yayılması mühüm tarixi hadisədir.

“Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında” hüquqi sənəd (13 noyabr 2013-cü il) dilçi alimlərin fəaliyyətinin koordinasiya olunmasına və səylərin birləşdirilməsinə şərait yaratmışdır. “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” verilmiş sərəncamı (17 iyul 2018-ci il) isə dövlət dilimizin xaricdəki həmvətənlərimizin və ölkəmizə maraq göstərən xarici vətəndaşların onlayn vasitələrlə öyrənmələri üçün lazımi tədbirlərin həyata keçirilməsinə meydan açmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında”kı 1 noyabr 2018-ci il tarixli fərmanı müstəqil ölkəmizdə dövlət dili istiqamətində ardıcıl olaraq aparılan məqsədyönlü siyasətin məntiqi davamı, həyata keçirilmiş tədbirlərin yeni bir səhifəsidir. Dövlət dilinin daha da inkişaf etdirilməsi sahəsində həyata keçirilən ardıcıl siyasət qloballaşma şəraitində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin və milli varlığının qorunub saxlanılmasına, daha da möhkəmləndirilməsinə dövlət səviyyəsində göstərilən qayğının parlaq bir nümunəsidir.

Bu, ilk növbədə özünəməxsus davamlı ənənələrə, möhkəm və dayanıqlı prinsiplərə, zəngin söz ehtiyatına malik olan Azərbaycan dilinin yad və kənar təsirlərdən qorunmasının təmin edilməsinə xidmət edən dövlət fərmanıdır. Çünki Sovetlər İttifaqı zamanı həmin ittifaq çərçivəsində nisbətən qapalı mühitdə olan Azərbaycan dili xalqımız müstəqillik qazandıqdan sonra ölkəmizin dünyaya açılması ilə əlaqədar olaraq sağdan-soldan kənar təsirlərlə üzləşməli olmuşdur.

Texniki tərəqqinin inkişafından doğan beynəlxalq miqyasda qəbul edilən yeni terminlərlə yanaşı, heç bir xüsusi ehtiyac olmadan dilimizə nüfuz edən yad kəlmələr leksikamızda özünə yol tapmaqdadır. Pis cəhət ondan ibarətdir ki, nəinki müasir gənclik, eyni zamanda bir çox hallarda təcrübəli ziyalılar, yaradıcı qüvvələr, hökumətdə təmsil olunan bəzi məmurlar və kütləvi informasiya vasitələri kənar təsirlər vasitəsilə dil mühitimizə daxil olan həmin sözlərə həssas münasibət göstərərək onları gündəlik danışıq dilinə daxil edirlər. Beləliklə, efirdən - ekrandan və sosial mühitdən Azərbaycan dilinin leksik tərkibinə dilimizin ahəng qanununa, qrammatik qaydalarına uyğun gəlməyən kənar sözlər daxil olmaq üçün münasib imkan qazanır. Təəssüf ki, belə lüzumsuz kəlmələr bəzən dərsliklərə də yol tapır, çox asanlıqla məktəb yaşlı uşaqların yaddaşında özünə yer sala bilir. Etiraf etmək lazımdır ki, hətta bəzi müəlliflər öz əsərlərində alınma sözlərdən, mürəkkəb terminologiyadan zəruri olmadan istifadə etməyi savadlılıq əlaməti hesab edirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında”kı 1 noyabr 2018-ci il tarixli fərmanında haqlı olaraq “əcnəbi söz və ifadələrin yersiz işlədilməsinin az qala adi hala çevrilməsi” xüsusi olaraq diqqətə çatdırılmışdır. Halbuki Azərbaycan dilinin zənginlikləri həmin alınma sözlərin və ifadələrin dilimizdəki münasib qarşılığı olan leksik vahidlərlə işlədilməsinə tamamilə imkan verir. Belə olduğu halda yad və kənar sözlərə kütləvi marağın güclənməsi və genişlənməsi Azərbaycan dilinin saflığının qorunması üçün həyəcan təbili çalınmasına böyük zərurət yaradır.

Prezident İlham Əliyevin 9 noyabr 2015-ci ildə Milli Elmlər Akademiyasının 70 ilik yubileyindəki dərin məzmunlu nitqində həmin həyəcan siqnalı çox qabarıq şəkildə ifadə olunmuşdur: “Bu gün bəzi hallarda görəndə ki, dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda bu müdaxilələr Azərbaycanda da dəstək qazanır, bu, məni doğrudan da narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyacı yoxdur. ...İmkan verilməməlidir ki, ana dilimizə yad kəlmələr daxil olsun. Bəzi ictimai xadimlərin, hökumət üzvlərinin çıxışlarında, bəzi televiziya verilişlərində, Milli Məclisdə eşidirəm ki, kənar kəlmələrdən istifadə edilir. Buna ehtiyac yoxdur”.

Dövlət başçısını dövlət dilinə münasibətdə narahat edən məsələlərin həlli ilk növbədə Azərbaycan elm və təhsil işçilərinin, mədəniyyət xadimlərinin və ümumiyyətlə ziyalı mühitinin, bütün yaradıcı qüvvələrin, mətbuatda, radio və televiziyalarda çalışanların əsas vəzifəsinə çevrilməlidir. Doğrudur, cənab Prezidentin AMEA-nın 70 illik yubileyindəki nitqindən sonra ölkə miqyasında bu istiqamətdə bir çox işlər görülmüşdür. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin nəzdində Dil Komissiyası yaradılmış və görkəmli dilçi və ədəbiyyatçı alimlər bu komissiyada təmsil olunmuşlar. AMEA Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimli AMEA Rəyasət Heyətində “Azərbaycan dilinin saflığının qorunmasının aktual məsələləri” mövzusunda məruzə ilə çıxış etmiş, mövzu ətrafında geniş müzakirələr aparılmışdır. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun bazasında akademiyanın bütün bölmələrini əhatə edən gənc alimlər və mütəxəssislər, doktorant və dissertantlar arasında “Dilimiz - milli varlığımızdır” mövzusunda müsabiqə keçirilmiş, bədii qiraət, imla, nitq mədəniyyəti üzrə ədəbi dil qaydalarına daha çox riayət edənlər mükafatlandırılmışdır.

Bundan başqa, Milli Elmlər Akademiyasında yaradılmış Orfoqrafiya Komissiyası Azərbaycan dilinin müstəqillik dövründə ilk orfoqrafiya lüğətini hazırlamaq üçün yeniləşdirilmiş orfoqrafiya qaydalarını hazırlayıb ümumxalq müzakirəsinə çıxarmışdır. Ölkə miqyasında 2017-ci ilin dekabrından 13 sentyabr 2018-ci il tarixədək 9 ay davam edən orfoqrafiya müzakirələri çoxsaylı dilçilik problemlərini diqqət mərkəzinə çıxarmış və elm adamlarını həmin problem məsələlərin həllinə səfərbər etmişdir. İctimai müzakirələr eyni zamanda ana dilinə - dövlət dilinə münasibətdə azərbaycançılıq mövqeyindən çıxış edənlərlə yanaşı, bəzi hallarda hələ də müxtəlif dillərdən alınma sözlərin müdafiəçiləri olanların da fəal mövqedə olduğunu nəzərə çarpdırmışdır.

Bununla belə, gərgin elmi müzakirələr şəraitində keçən debatlardan sonra “Azərbaycan dilinin orfoqrafiya qaydaları” təsdiq edilmək üçün Nazirlər Kabinetinə təqdim olunmuş, həmin qaydalar əsasında xalqımızın milli maraqlarına və dövlətçilik prinsiplərinə, ən başlıcası isə Azərbaycan dilinin qrammatik quruluşuna cavab verən yeni orfoqrafiya lüğətinin hazırlanmasına start verilmişdir. 2019-cu ilin birinci yarısında yeniləşdirilmiş orfoqrafiya lüğəti xalqımıza çatdırılacaqdır. Bundan başqa, son illərdə bir neçə sahə üzrə izahlı lüğətlərin hazırlanıb nəşr edilməsi də dilimizin ümumi mənzərəsini qorumaq, onun daxili potensialını xalqa çatdırmaq və nəticə etibarilə ana dilinin zənginliklərindən istifadə etmək üçün mükəmməl elmi baza yaratmağa xidmət edir. Heç şübhəsiz, bu qeyd olunanlar nə qədər əhəmiyyətli dilçilik faktları olsalar da, tam yetərli deyildir. Mövcud Prezident fərmanı Azərbaycan Respublikasının dövlət dilinin saflığının qorunması və işlək mexanizmlərinin təkmilləşdirilməsi baxımından qarşıya daha məsuliyyətli vəzifələr qoyur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında”kı 1 noyabr 2018-ci il tarixli fərmanında “televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi” nəzərə çatdırılmışdır. Obyektiv şəkildə diqqət mərkəzinə çəkilən bu ciddi nöqsanlar həmin sahələri təmsil edənlərin özləri tərəfindən də etiraf edilir.

Lakin təəssüflər olsun ki, hələ də davam edən bu istiqamətdə təsirli tədbirlərin görülməsinə ehtiyac var. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunda fəaliyyət göstərən monitorinq şöbəsində kütləvi informasiya vasitələrinin, qəzet və jurnalların dili ətrafında keçirilən müzakirələr, həmin müzakirələrdə Mətbuat Şurası üzvlərinin, ekran-efir və mətbuat nümayəndələrinin yaxından iştirakı ilkin olaraq dilçi alimlərlə mətbuat işçiləri arasında səmərəli bir dialoq yaratmışdır. Eyni zamanda bu ilin oktyabr ayında ilk dəfə olaraq müğənnilərin, ifaçılıq sənəti ilə məşğul olanların dil xətalarına həsr edilmiş müzakirələrə dair seminar da maraq doğurmuş, diqqətin problemin əsas məqamlarına yönəldilməsinə şərait yaratmışdır. Lakin mətbuat və nəşriyyatlar üzərində monitorinqi daha ardıcıl və sistemli şəkildə qurmağa, aparılan müzakirələr zamanı müəyyən edilmiş nöqsanların aradan qaldırılmasına, irəli sürülən təkliflərin həyata keçirilməsinin təmin edilməsi üçün əlavə tədbirlərə ciddi ehtiyac var.

Fikrimizcə, bu baxımdan Prezident fərmanında nəzərdə tutulan Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması və qurumun işinin normal səviyyədə təşkili mətbuat və nəşriyyat işi sahəsində, reklam bazarında dil faktorlarına münasibət üzrə ardıcıl, sistemli və professional nəzarətin həyata keçirilməsi baxımından faydalı olacaqdır. Bu, bir qədər obrazlı şəkildə desək, bir sıra müstəqil dövlətlərdə tətbiq olunan “dil nazirliyi” funksiyalarını həyata keçirəcəkdir.

Prezident İlham Əliyevin imzaladığı fərmanda Monitorinq Mərkəzinin qarşısında duran əsas vəzifələr də konkret olaraq müəyyənləşdirilmişdir: dövlət dilinin tətbiqinə nəzarət etmək, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin etmək. Ümumiləşmiş şəkildə ifadə olunmuş bu vəzifələr kütləvi informasiya vasitələrinin dili üzərində nəzarəti təmin etməklə bərabər, bütövlükdə ölkəmizdə dövlət dili siyasətinin həyata keçirilməsinin məsuliyyətli və şərəfli vəzifələrinin reallaşdırılmasına geniş üfüqlər açır. Bu baxımdan yanaşdıqda hazırkı mərhələdə bir sıra mühüm vəzifələrin yerinə yetirilməsinə ehtiyac yaranmışdır.

İlk növbədə onu qeyd etmək lazımdır ki, Milli Məclisdə qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət dili haqqında” qanuna yenidən baxılmasına və zəruri düzəlişlərin aparılmasına böyük ehtiyac vardır. “İnzibati Xətalar Məcəlləsi”nə az qala Milli Məclisin hər iclasında əlavələr və düzəlişlər edildiyi halda “Dövlət dili haqqında” qanunda indiyədək heç bir yeni yanaşma faktına rast gəlinməmişdir. Fikrimcə, dil qaydalarının kobud surətdə pozulması hallarına qarşı da müəyyən təsirli tədbirlərin görülməsinə ehtiyac vardır. İkincisi isə, hesab edirəm ki, qəzet-jurnal redaksiyalarında, xüsusən nəşriyyatlarda redaktor-korrektor işini bərpa etmək lazımdır.

Bundan başqa, Azərbaycan dilinin orfoqrafiya və orfoepiya lüğətlərinin hazırlanıb ictimaiyyətə çatdırılmasını sürətləndirmək tələb olunur. Çünki dil qüsurlarının bir çoxu sözlərin yazılışı ilə deyilişi arasındakı fərqlərin nəzərə alınması ilə əlaqədardır.

Eyni zamanda, “Müasir Azərbaycan dilinin qrammatikası” adlı kitaba da ciddi ehtiyac yaranmışdır. Bu adda axırıncı çoxcildlik nəşr XX əsrin yetmişinci illərində Azərbaycan Dövlət Universitetində çalışan görkəmli alimlər tərəfindən hazırlanmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə “Müasir Azərbaycan dili” çoxcildlik nəşrinin müəllifləri olan görkəmli dilçi alimlər Dövlət mükafatı laureatı adına layiq görülmüşdülər. Bununla belə, həmin qrammatika kitabının nəşrindən keçən yarım əsrdən çox müddətdə, xüsusən ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra Azərbaycan dilinin leksik tərkibi daha da zənginləşmiş, dildə müəyyən bir milliləşmə prosesi getmişdir. Ona görə də ölkəmizin tanınmış dilçi alimlərinin cəlb olunması ilə müstəqillik mərhələsinin tələbləri əsasında müasir Azərbaycan dilinin qrammatikası yenidən yazılmalıdır. Bu, həm ali məktəblərin filologiya fakültələri üçün dərslik kimi istifadə olunmaq, həm də ümumiyyətlə dil normalarını xalqımıza çatdırmaq üçün son dərəcə əhəmiyyətli bir addım ola bilər.

Onu da qeyd etməliyəm ki, Nəsimi adına Dilçilik İnstitutunda “Müasir Azərbaycan dilinin qrammatikası” kitabının plan-prospekti hazırlanmışdır. Azərbaycan dilinin qrammatikasının bütün şöbələrini: leksika, fonetika, morfologiya və sintaksis bölmələrini əhatə edəcək bir kitabın yüksək elmi-nəzəri səviyyədə hazırlanması üçün ölkəmizin dilçi alimlərinin yaradıcılıq potensialını birləşdirmək lazımdır. Bundan başqa, Azərbaycan dilinin daxili zənginliyini, söz ehtiyatının rəngarəngliyini xalqımıza, yeni nəsillərə çatdırmaq üçün Azərbaycan dilinin sinonimlər lüğətinin hazırlanmasına da diqqət yetirməyimizə böyük ehtiyac var. Müasir elmi-texniki yeniliklərlə əlaqədar Azərbaycan dilinə daxil olan terminlər və onların dilimizdəki münasib qarşılığı olan sözlər haqqında mütəmadi olaraq mətbuat vasitəsilə xalqımıza zəruri məlumatların çatdırılması da çaşqınlığın, yersiz uydurmaların qarşısını ala bilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında”kı fərmanı reklam siyasətinə də yenidən baxmağı tələb edir. Fikrimcə, müstəqil dövlətimizin yeni dil siyasətinin tələbləri baxımından “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununa da yenidən nəzər salınmalı, münasib dəyişikliklər edilməlidir. Monitorinq Mərkəzinin reklam məsələlərini diqqət mərkəzində saxlaması günümüzün ən zəruri vəzifələrindəndir. Reklam işinin təşkilinə, bütövlükdə, necə deyərlər, reklam dilinə dair elmi əsərlərin də yox dərəcəsində olması dilçi alimlərimizi düşündürməlidir.

Ümumiyyətlə, “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında”kı Prezident fərmanı çağırış xarakterli mühüm dövlət sənədidir. Bu fərman Azərbaycan ziyalılarını, dilçi alimləri və müəllimləri, filoloqları dövlət dilinin - ana dilinin qorunmasına və daha da inkişaf etdirilməsinə, dildən istifadənin müasir tələblər səviyyəsinə qaldırılmasına təkan verən və meydan açan konkret və aydın bir strategiyanı dolğun surətdə ifadə edir. Bütövlükdə bu, dövlət dilinin saflığının qorunmasına, daxili imkanlar hesabına zənginləşdirilməsinə, nitq mədəniyyətinin təkmilləşdirilməsinə dövlət qayğısını tam ifadə edir.

Müstəqil Azərbaycan dövlətinin ana dilinə - dövlət dilinə qayğısı azərbaycançılıq ideologiyasının daha da yetkin ifadəsinə və zənginləşdirilməsinə, ümummilli ideyalarla müstəqil dövlətçilik strategiyasının üzvi surətdə əlaqələndirilməsi yolu ilə ölkəmizdə milli şüurun və müstəqil dövlətçilik təfəkkürünün birgə və bariz surətdə səsləşməsinə işıq salır.

**Mühüm siyasi-ideoloji xarakterə və ümummilli mahiyyətə, elmi-praktik əhəmiyyətə malik olan bu fərman yeni vətənpərvər nəsillərin yetişib hazırlanmasına, azərbaycançı qüvvələrin daha geniş və sistemli şəkildə formalaşdırılmasına meydan açır. İnam var ki, Azərbaycan ziyalıları, ölkəmizin humanitar sahədə çalışan dilçi alimləri, müəllimləri bu fərmandan irəli gələn ümummilli vəzifələri yüksək səviyyədə həyata keçirmək üçün bütün qüvvələrini səfərbər edəcəklər.**

**İsa HƏBİBBƏYLİ,**

*Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti,*
*Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik*

# Ankaradakı Heydər Əliyev bağında ağacəkmə aksiyası keçirilib

## *Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan “Fidanlar fidanlarla böyüyür!” şüarı altında təşkil olunan aksiyada iştirak edib*





Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankaranın Batıkent rayonunun Uğur Mumcu məhəlləsində yerləşən Heydər Əliyev bağında təşkil olunan ağacəkmə aksiyasında iştirak edib və ağac əkib. AZƏRTAC xəbər verir ki, “Fidanlar fidanlarla böyüyür!” şüarı altında keçirilən tədbirdə Türkiyənin dövlət və hökumət nümayəndələri, Ankara ictimaiyyətinin tanınmış simaları, səfirlər, deputatlar, o cümlədən məktəblilər iştirak ediblər.

Ağacəkmə aksiyası ilə bağlı Heydər Əliyev bağında böyük izdiham yaşanıb.

Əvvəlcə Prezident Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış edib.

Ədalət və İnkişaf Partiyası (AKP) tərəfindən həyata keçirilən yaşıllaşdırma siyasətinin davamı olan “Fidanlar fidanlarla böyüyür!” layihəsinin əhəmiyyətindən danışan Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, bu gün Türkiyənin 81 vilayətində 10 milyon ağac əkiləcək. Dövlət başçısı qeyd edib ki, Türkiyə yaşıllaşdırma işləri ilə dünyada meşəlik sahələrini genişləndirən nadir ölkələrdən birinə çevrilib. AKP hakimiyyəti 16 ildə 4 milyard 70 milyon ədəd ağac əkib. Bu sayı 7 milyarda çatdırmaq hədəflənir.

Qeyd edək ki, Ankaradakı Heydər Əliyev bağı ulu öndərimizin şərəfli ömür yoluna ehtiram olaraq salınıb və burada hər il 1000 ağac əkilir. Heydər Əliyev bağı Türkiyə paytaxtının ən gözəl guşələrindən birində yerləşir. İnsanlar bu ərazidə xoş istirahət edirlər. Bu bağ Ankarada azərbaycansevərlərin ən çox ziyarət etdikləri məkana çevrilib.

# Real islahatlara obyektiv qiymət

Dünyada müxtəlif ölkələrin dinamik inkişafına nəzər yetirdikdə görürük ki, bunun təməlində ilk növbədə uğurlu islahatlar dayanır. İslahatlar isə qanunlarla tənzimlənir. Ölkəmizdə son illər qəbul edilən qanunlar da bu məqsədə xidmət edir. Müxtəlif sahələr üzrə islahatlar aparmaq üçün qanunvericilik bazası mütəmadi olaraq təkmilləşdirilir. Məsələn, sahibkar tərəfindən müəssisələrin yaradılması və lisenziyanın alınması prosedurları sadələşdirilmiş, idxal-ixrac əməliyyatlarının həyata keçirilməsi üçün “bir pəncərə” sistemi tətbiq edilmişdir.

Vaxtında aparılan bu kimi uğurlu islahatlar dünyanın müxtəlif reytinq təşkilatları tərəfindən də yüksək qiymətləndirilir. Xəbər verildiyi kimi, Dünya Bankı tərəfindən hazırlanan “Doing Business 2019” hesabatında ölkəmiz 32 pillə irəliləmiş və 190 ölkə sırasında 25-ci yerə yüksələrək ən çox islahat aparan ölkə statusunu qazanmışdır. Nüfuzlu qurum tərəfindən belə bir qərarın qəbul edilməsi təsadüfi deyil. Çünki bu cür təşkilat hər bir ölkə üçün hesabat hazırlayarkən dərin elmi təhlillər aparıb nəticə çıxarır. Dünya Bankı tərəfindən oktyabrın 31-də açıqlanan “Doing Business 2019” hesabatı da bu mənada istisna deyil. Üstəlik, Dünya Bankının hesabatı biznes mühitinin asanlığının qiymətləndirilməsi baxımından etibarlığı ilə seçilir.

Dünya Bankının komandası hər bir ölkə barədə hesabat hazırlayarkən dövlət qurumları ilə yanaşı, özəl sektorun nümayəndələri ilə birlikdə çalışır, bundan əlavə, konsaltinq şirkətləri tərəfindən təqdim olunan sənədləri qiymətləndirir. Üstəlik hər bir ölkəyə yüksəksəviyyəli xüsusi ekspert qrupları göndərilir ki, qanunvericilik üzrə qəbul edilən islahatların praktiki olaraq həyata keçirilməsinin səviyyəsini dəyərləndirsinlər. Əldə edilən materiallar əsasında hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeyini müəyyən edirlər.

Qeyd edək ki, “Doing Business”in verdiyi reytinq digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda da (“Qlobal Rəqabətlilik Hesabatı”, “Qlobal İnnovasiyalar İndeksi”, “İqtisadi Azadlıq İndeksi”, “Qlobal İmkanlar İndeksi” və s.) baza rolunu oynayır. Təkcə bu fakt göstərir ki, “Doing Business 2019” hesabatında ölkəmizin 190 ölkə arasında 25-ci yer tutması böyük nailiyyət olmaqla yanaşı, digər hesabatlar üçün də baza rolunu oynayacaq.

Vurğulandığı kimi, islahatların aparılması üçün ilk növbədə mükəmməl qanunvericilik bazası yaradılmalıdır. Bu istiqamətdə həyata keçirilən qanunvericilik siyasəti Azərbaycanın dünyanın 10 ən islahatçı ölkəsi siyahısına daxil olmasına imkan yaradıb. Həmin hesabatda qeyd edilir ki, təkcə 2017-ci və 2018-ci illərin ilk 4 ayında Azərbaycanda 30-a yaxın normativ hüquqi akt qüvvəyə minməklə 70-dən çox islahat həyata keçirilib. Qanunvericilik bazasının təkmilləşdirilməsi və islahatların aparılması sayəsində vətəndaşların və sahibkarların məmnunluğunun artması, bu sahədə şəffaflığın təmin olunması, müxtəlif sektorlar üzrə inzibati prosedurların sayının və xərclərin minimuma endirilməsi, eləcə də dövlət xidmətlərinin göstərilməsində keyfiyyətin daha da yüksəlməsi müşahidə olunub.

Məlum olduğu kimi, inkişaf etmiş ölkələrdə iqtisadiyyatın əsas aparıcı qüvvəsi özəl sektordur. Bu sahənin inkişafı ümumilikdə ölkənin iqtisadi tərəqqisini təmin edir. Prezident İlham Əliyevin özəl sektora verdiyi dəstək, sahibkarlığın inkişafına göstərdiyi qayğı sayəsində qeyri-neft sektorunda məhsul istehsalı sürətlə artır. Görülən tədbirlər sayəsində biznesə məmur müdaxiləsinin qarşısının alınması, dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam da özəl sektorun inkişafına təkan verən başlıca amillərdəndir.

Bu sahədə görülən müsbət işlər sözügedən hesabatda da öz əksini tapıb. Həmin sənəddə bildirilir ki, Azərbaycan “Tikinti üçün icazələrin alınması” və “Kreditlərin alınması” indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib. Eyni zamanda “Kiçik investisiyaların maraqlarının qorunması” indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, “Biznesə başlama” indikatoru üzrə ilk onluğa düşməyə (9-cu yer) nail olub. Ümumiyyətlə, “Doing Business 2019” hesabatının 10 indikatorundan 8-i üzrə ölkəmiz xeyli irəliləyib. Həmçinin əmək bazarının tənzimlənməsi indikatoru üzrə də aparılan islahatlar Dünya Bankının ekspertləri tərəfindən yüksək qiymətləndirilib.

Dünya Bankının hesabatının üstün cəhəti ondan ibarətdir ki, burada araşdırmalar daha geniş sahələri əhatə etməklə elm əsasında aparılır. İslahatlara məhz belə yanaşma nəticəsində Azərbaycan dünyanın 140 ölkəsi arasında biznesin dinamikliyi üzrə 31-ci, tənzimləmələrdə qanunların effektivliyi göstəricisi üzrə 22-ci, dövlət tənzimləmələrinin iqtisadiyyata yüklülüyünün azlığına görə 12-ci, hökumətin gələcəyə yönəlik fəaliyyətinə görə 20-ci, dəmir yolu xətlərinin səviyyəsinə görə 17-ci, dəniz limanlarının xidmət səviyyəsinə görə 19-cu, internet istifadəçilərinin sayına görə 36-cı, əhali arasında rəqəmsal vərdişlərə görə 15-ci, sahibkarlıq riskinin azlığına görə 21-ci yerdə qərarlaşıb.

Təbii ki, həyata keçirilən iqtisadi islahatların əsas məqsədi ölkənin inkişafı və həmin inkişafın əsas hədəflərindən olan əhalinin sosial rifahının yaxşılaşdırılmasıdır. Yəni bütün iqtisadi islahatlar bu iki amala xidmət edir. Ölkəmizdə sosial rifah sahəsində həyata keçirilən tədbirlər də ardıcıl olaraq müxtəlif beynəlxalq hesabatlarda öz müsbət əksini tapır. Bu baxımdan növbəti hesabat da istisna deyil. Belə ki, hesabatın 12 əsas sütun indikatorundan 7-si üzrə ölkəmizin mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşıb. Buna görə də həmin sənəddə dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi Azərbaycanın adı çəkilir. Qeyd edək ki, Azərbaycan həmin hesabatda əhalinin elektriklə təchizatı səviyyəsinə görə maksimal 100 bal almaqla dünyada ilk pillədə qərarlaşıb.

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan iqtisadi islahatlar böyük uğurlarla müşayiət olunur. Buna baxmayaraq, islahatlar davam edir, özü də daha sürətlə və daha dərindən. Deməli, növbəti illərdə də ölkəmizin uğurlarının nüfuzlu reytinq təşkilatlar tərəfindən yüksək qiymətləndiriləcəyi gözlənilir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Azərbaycanın və Ermənistanın müdafiə nazirlikləri arasında hər hansı rabitə və ya digər əlaqə mövcud deyil

“Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Ermənistanın Müdafiə Nazirliyi arasında rabitə və ya hər hansı digər əlaqə mövcud deyil”.

Bunu Ermənistanın müdafiə naziri vəzifəsini icra edən David Tonayanın açıqlaması ilə əlaqədar AZƏRTAC-ın sorğusuna cavab olaraq, Azərbaycan Respublikasının Müdafiə Nazirliyindən bildiriblər.

Açıqlamada bildirilib ki, Düşənbədə əldə olunmuş razılığa əsasən, cəbhədəki vəziyyətlə bağlı Ermənistanla qarşılıqlı əlaqəni yaradan şəxs müəyyən edilib və həmin məsul şəxs Müdafiə Nazirliyinin əməkdaşı deyil.

# Bakı Metropoliteni-51

# Yeni texnologiyalar, yeni yanaşma, yeni üfüqlər

51 il əvvəl fəaliyyətə başladığı dövrdən Bakının rəmzlərindən birinə çevrilmiş paytaxt metropoliteni bu gün şəhərimizin ictimai sərnişin nəqliyyatı sistemində həm də innovativ düşüncə tərzinin tətbiqində özünəməxsus yer tutur. Dövlətin daim diqqət və qayğısı ilə əhatə olunmuş və sosial əhəmiyyəti danılmaz olan bu nəqliyyat növünün inkişafının yeni mərhələsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş Bakı Metropoliteninin konseptual inkişaf sxemi ilə müəyyən olunub.



2014-cü ildə Bakı Metropoliteninin və "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması bu inkişaf mərhələsinin yeni hərəkətverici qüvvəsinə çevrilib. Əlbəttə, "Bakı Metropoliteni" QSC-nin yaradılması ilə təkcə istismar deyil, eyni zamanda, inşaatda innovativ düşüncə tərzinin təməli qoyulmalı idi. Böyük islahatların aparıldığı təsərrüfatlardan birinciləri arasında qısa müddətdə ən nümunəvi təşkilata çevrilmiş dəmir-beton konstruksiyaların istehsalı sahəsi oldu. Ötən əsrin 60-cı illərinin ab-havasından ayrılmamış, texnoloji imkanlar baxımından geriləməkdə olan sahə büsbütün yeniləndi. Tübinqlərin, dəmir konstruksiyaların, sement məhsulların istehsalı məqsədilə ən yeni avadanlıqlar, istehsalatın tam təhlükəsiz şərtlərini təmin edən və keyfiyyətə təkan verən mühafizə sistemləri, yarımstansiya, dizel-generator stansiyası, qazanxana, taralar, siloslar, laboratoriya quraşdırıldı və ya müasirləşdirildi. Sahədə müasir sistemlər qurulmaqla beynəlxalq İSO standartlarının tələbləri ən yüksək səviyyədə təmin edildi və tanınmış Avropa şirkətlərindən birinin müvafiq sertifikatı ilə təsdiq edildi. Ərazidə ən böyük yeniliklərdən biri, dəmir beton blokların istehsalı üzrə sexin inşa edilməsi oldu. Bu sexdə istehsal olunmuş dəmir-beton bloklar "Nərimanov" elektrik deposunda inşa olunan qatarların sınaq yolunda pilot layihə kimi tətbiq edilib. Hazırda inşası davam edən yeni xəttin "Memar Əcəmi-B-03" mənzilində bu blokların düzülməsi başa çatdırılıb və stansiya yollarına keçilib.

Görülən işlərin səmərəsi xeyli dərəcədə metropolitendə yeraltı yolların, tunellərin, elektrik, işarəvermə və rabitə sistemi avadanlıqlarının dəqiq müayinəsini təmin edən, bu sahə üzrə tədqiqatlar aparan laboratoriyaları birləşdirmək və vaqon bazası əsasında diaqnostika kompleksi yaratmaqla təşkil edilən diaqnostika və metroloji təminat mərkəzinin təşkili ilə bağlı oldu. Mərkəzin əsas vaqon-laboratoriyası sayılan diaqnostika mərkəzi bu gün dünya diaqnostika sistemləri arasında misli olmayan kompleks kimi bir çox ölkələrin mütəxəssisləri arasında böyük maraq doğurub.

Bu sadalananlar son 4 ildə görülən bütün işlərin tam siyahısı deyil. Burada kadrların hazırlanması, onların bilik səviyyəsinin təkmilləşdirilməsi sahəsində həyata keçirilən son dərəcə mühüm bir tədbir xüsusi olaraq qeyd edilməlidir. Bu sahədə qarşıya qoyulan vəzifələrin həllində QSC-nin yaranmasının ilk ilində formalaşdırılan təlim-tədris mərkəzinin fəaliyyətə başlamasının əhəmiyyəti böyük oldu. Orada başda qatar sürücüləri olmaqla metropolitendə gərəkli olan bütün peşələrdən olan mütəxəssislərin hazırlığı və ixtisasca təkmilləşməsi üzrə kurslar fəaliyyətə başladı. Xüsusən də yeraltı yollarda hərəkətin təşkili və idarə olunması üzrə tətbiq edilən, eləcə də gələcəkdə tətbiq olunacaq yeni texnologiyalarla işləyə bilən kadrların yetişdirilməsi baxımından tədris mərkəzinin əhəmiyyəti xüsusən böyükdür. Metropolitenin vaqon parkına daxil olan yeni nəsil metro vaqonlarının mənimsənilməsi mərkəzin maşinist hazırlığı üzrə kurslarında və maşinist trenajoru da daxil olmaqla hər bir nəzəri və praktiki məşğələ vasitələri ilə təmin edilmiş texniki kabinetində aparılır. 2018-ci ildə metro qatarlarının maşinistlərin iş sistemi tamamilə yenidən qurularaq, keçmiş SSRİ məkanında ilk dəfə bu sistemə yeni baxış gətirilib və ötən müddət bu yeniliklərin əsaslı olduğunu bir daha təsdiq etdi. Bu yeniliklərin təməlində maşinistlərin həm iş, həm də sosial-məişət məsələlərinin kompleks həll olunması, əmək məhsuldarlığı, işin səməresi və keyfiyyəti durur. Eyni zamanda, maşinistlərin işə qəbulu prosesi də tamamilə yeni meyarlar və qaydalara uyğun qurulmaqla başlanılıb. Buna qədər maşinist hazırlığı 3-5 il ərzində aparılırdısa, hazırda peşə və texniki ixtisas təhsili olan gənclər 6 aya qədər davam edən optimal hazırlıq kursunda iştirak edərək, bu işə qəbul oluna bilər.













Son 4 il metropolitençilərin və metro inşaatçılarının sosial-məişət həyatına bir sıra yeniliklər gətirdi. Metroda yeganə olan depo ərazisindəki yeməkxanalarında əsaslı təmir işləri aparıldı. Yeməklərin qiymətinin müəyyən faizinin həmkarlar ittifaqının hesabından ödənilməsi, işçinin ödəyəcəyi haqqın ayın axırında onun məvacibindən tutulması kimi əlverişli şərtlər, eləcə də yeməklərin keyfiyyətinin artırılması, xidmət mədəniyyətinin yüksəldilməsi metropolitençilərin böyük əksəriyyətinin nahar fasiləsində bu yeməkxanalara üz tutmasına səbəb oldu.

Müəssisə rəhbərliyi və Metropoliten İşçiləri Həmkarlar İttifaqı (MİHİ) əməkçilərin asudə vaxtlarının, məzuniyyət dövründə, xüsusən də yay mövsümündə istirahətinin səmərəliliyinə, müalicə profilaktik tədbirlərin yüksək səviyyədə təşkilinə xüsusi önəm verirlər. Bu istiqamətdə həyata keçirilən genişmiqyaslı işlərdən biri metropolitenin Bilgəh qəsəbəsindəki sanatoriya-profilaktoriya və istirahət sahəsinin yenidən qurulması oldu. İlk növbədə, profilaktoriyadakı köhnə müalicə-profilaktika avadanlıqları dünya səhiyyə texnikası sənayesinin ən son nümunələri ilə təmin edildi. Sanatoriyaya tibbi profilaktika və müalicə üzrə daha peşəkar mütəxəssislər gətirildi. İstirahət sahəsində köhnə evciklərin yeni kottec tipli evlərlə əvəz edilməsi üzrə bir neçə il əvvəl başlanmış işlər 2014-2015-ci illərin yay mövsümünə hazırlıq dövründə daha geniş miqyasda davam etdirildi. Bir neçə köhnə evcik sökülərək yerində üçmərtəbəli, daha çox otaqlı və rahat şəraitli binalar ucaldıldı.

Bu gün məzuniyyət dövründə respublika miqyaslı istirahət ocaqlarında, müalicə müəssisələrində dincəlmək istəyənlər güzəştli qiymətli yollayışlarla növbəli şəkildə təmin edilirlər. Bayram günlərində müəssisənin qabaqcıl işçilərindən ibarət qruplar respublikanın görməli yerlərinə, eləcə də ölkə xaricinə qısamüddətli səfərlərə çıxırlar. Son 4 ildə metropolitençilər Gürcüstanın Kobuleti kurort şəhərciyində, dəfələrlə İstanbulda və Dubayda olublar. İlin sonunda daha bir qrupun Türkiyə səfəri nəzərdə tutulub.

Metropolitençi ailələrinə diqqət və qayğı xüsusi mövzudur. Korporativ sosial məsuliyyət çərçivəsində bu ailələrin kiçik yaşlı uşaqları üçün ingilis dili, kompüter savadı, rəssamlıq kursları keçirilir. Bu yaşda uşaqların metropolitenlə, valideynlərinin iş yerləri ilə tanışlıq, metropoliten barədə daha ətraflı məlumat almaları və ən əsası, yetişməkdə olan nəslin əməyə münasibətinin formalaşdırılması və peşə seçiminə kömək etmək məqsədilə onların "Nərimanov" elektrik deposuna ekskursiyaları təşkil edilir.

Artıq 3 ildir ki, yüksək balla ali məktəbə daxil olan metropolitençi balaları və valideynləri ilə görüşlər keçirilir, onlara xüsusi dəyərli hədiyyələr verilir. Metropolitenlə bağlı peşələrə üstünlük vermiş tələbələrin təhsili nəzarətə götürülür.

Sosialyönümlü layihələr sırasında hədəfi sərnişinlər olan reklam kampaniyalarının, aksiyaların da əhəmiyyəti artıq təsdiq olunmuş faktdır. Sərnişinlərin diqqətini cəlb edən fotoreklamlar metropolitendə hərəkət, davranış, nəzakət qaydalarına həsr olunub. "Gənclik" və "Nəriman Nərimanov" stansiyalarında klassik təsviri sənət nümunələrindən, Azərbaycan kinosunun 100 illik yubileyi münasibətilə "Azərbaycanfilm"in istehsalı olan kinofilmlərin kadrarxası məqamlarını, çəkiliş qruplarının fəaliyyətini əks etdirən şəkillərdən ibarət, eləcə də Azərbaycan Xəzər dəniz gəmiçiliyinin 160 illiyi münasibətilə təşkil edilən fotosərgilər sərnişinlərimiz tərəfindən maraqla qarşılanıb. Bu sıradan olan layihələrdən talassemiya xəstəliyi olan uşaqlara yardım məqsədilə metropolitendə keçirilən qanvermə aksiyalarını, Yeni il bayramlarında, 1 iyun - Uşaqların beynəlxalq müdafiəsi, 18 sentyabr - Milli musiqi günündə, yeni tədris ilinin başlanması ilə əlaqədar olaraq stansiyalarda təşkil edilən aksiyaları və sosial layihələr çərçivəsində digər layihələri nümunə göstərmək olar.

Bu gün Bakı Metropoliteni dünya yeraltı nəqliyyat müəssisələri arasında özünəməxsus yeri ilə fərqlənir. Çoxminli metropoliten kollektivi yeraltı yollarımızın gələcək inkişafı, təkmilləşməsi, ən yeni texnologiyalarla silahlanmaqla dünyanın qabaqcıl nəqliyyat müəssisələri arasında öz yerini möhkəmlətməsi üçün ölkə rəhbərinin qarşıya qoyduğu vəzifələri yüksək səviyyədə yerinə yetirmək əzmi ilə çalışır, bütün imkanlarını metropolitenin inkişafı üzrə dövlət proqramının yerinə yetirilməsinə səfərbər edir.

***Bəxtiyar ƏZİZLİ,***
***"Azərbaycan"***

# Erməni mediası: "Ermənistanı İlham Əliyev qarşısında kim məğlub duruma saldı?"

## Azərbaycan Prezidentinin Ağdamdan verdiyi bəyanatı geniş müzakirəyə çıxaran erməni KİV və sosial şəbəkə istifadəçiləri Paşinyanla Sarkisyandan hesab sorurlar

***Əvvəli 1-ci səh.***

Yeri gəlmişkən qeyd edək ki, Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin açılışında çıxışı zamanı bu xüsusda çox maraqlı fikirlər səsləndirib: *"Bu ilin yazında Ermənistanda baş vermiş hadisələr bunun bariz nümunəsidir. Məhz 2016-cı ilin aprel ayında Ermənistanın işğalçı rejiminə çox böyük zərbə vuruldu və onlar öz işğalçılıq siyasətinin qurbanına çevrildilər".*

### İnformasiya savaşında inamlı qələbə

Prezident İlham Əliyevin Ağdamdan Ermənistana verdiyi kifayət qədər açıq mesajların rus dilinə tərcümə olunmuş variantı erməni mediasının, sosial şəbəkə istifadəçilərinin də nəzərindən qaçmadı. Ermənilərin sosial şəbəkələrdəki statusları, şərhləri, mövqeləri əsasında hazırlanan araşdırmalardan görünür ki, onlar ölkələrinin tam məhvə doğru getdiyi, Qarabağın tədricən itirildiyi və cənab İlham Əliyevin Ermənistan üzərində üstünlüyünün artması barədə ortaq rəydədirlər. Olanların profillərini diqqətlə araşdırdıqda ortaya maraqlı mənzərə çıxır: hər iki siyasi qütb bir-birini xəyanətdə və İlham Əliyevin qələbəsinə şərait yaratmaqda ittiham edir.

Paşinyana qarşı hücuma keçənlərin demək olar, hamısı sabiq prezidentlər Robert Koçaryana və Serj Sarkisyana bağlı insanlardır. Yəni, müxalifətin "trollarıdır". Onlar Serj Sarkisyan və Robert Koçaryanı müdafiə edən şərhlər də paylaşırlar. Necə ki, Koçaryan-Sarkisyan cütlüyünü Ermənistanı iflasa sürükləməkdə ittiham edənlərin profil şəkilləri də Paşinyanın fotosu ilə "bəzənir".

Amma sosial şəbəkələrdəki bu siyasi qovğaların fonunda, tərəfsiz və sadə ermənilərin rəyləri daha üstünlük təşkil edir. Onlar hər iki hakimiyyəti Ermənistanın bütün sahələr üzrə tənəzzülə uğramasında günahlandırırlar. Məhz bu xüsusda Ermənistanda sosial şəbəkələrdə baş verənlərin təhlili həqiqətən də burada böyük bir qütbləşmənin yarandığını üzə çıxarır. Belə vəziyyət Azərbaycanın, onun lideri İlham Əliyevin həm də informasiya müharibəsində düşmən üzərində inamlı qələbəsinin növbəti təsdiqidir.

Azərbaycan Prezidentinin Ağdama səfərindən sonra sosial şəbəkələrdə erməni istifadəçilər tərəfindən yer alan maraqlı status və şərhləri diqqətinizə çatdırırıq.

### "Paşinyan İlham Əliyevə uduzur"

"Facebook" sosial şəbəkə istifadəçisi Ruben Soqomonyan yazır ki, xalqın sevimlisi olmaq istəyən Nikol Paşinyan da Serj Sarkisyan kimi Azərbaycan, onun rəhbərliyi qarşısında acizdir: "İlham Əliyev Ağdama son səfərində Ermənistanla kifayət qədər sərt tonda danışır, açıq şəkildə bildirir ki, Ermənistanın sarsıdılması prosesi Qarabağ münaqişəsi həll olunmayana qədər davam etdiriləcək. Amma hakimiyyətə gəldikdən indiyə qədər Paşinyan buna qarşı hansısa tutarlı cavab verə bilməyib. Bu məsələdə o, Serj Sarkisyandan qətiyyən fərqlənmir".

Anna Zöhrabyan adlı daha bir "Facebook" istifadəçisi İlham Əliyevin Ağdamdakı bəyanatının yer aldığı xəbərə münasibət bildirib. Profilinə baxdıqda iqtisadçı olduğu nəzər çarpan istifadəçi rəyində yazır: "Ötən zaman da göstərir ki, Azərbaycan istədiyinə daha sürətlə yaxınlaşır və bu səbəbdəndir ki, Bakı konkret niyyət və məqsədlər açıqlayır. Amma nəyə görəsə, Paşinyan bu məsələdə hələ də Azərbaycana tutarlı cavab verə bilmir və yəqin ki, verə də bilməyəcək. Paşinyan İlham Əliyevə uduzur".

### "İlham Əliyev Ermənistanı əzir"

Naira Alaverdiyan adlı "Odnoklassniki" istifadəçisi isə səhifəsində maraqlı paylaşım edib. İlham Əliyev və Paşinyanın şəkillərini paylaşaraq yazır ki, Sarkisyandan sonra Paşinyan da İlham Əliyevə cavab verə bilmir: "Ermənistanı İlham Əliyev qarşısında niyə məğlub duruma salırsınız? Faktiki olaraq o, Ermənistanı əzir. Amma biz buna cavab verə bilmirik. Əliyev bəyan edir ki, Ermənistan Qarabağ məsələsində geri çəkilməsə, daha ağır vəziyyətə düşəcək. Əslində, bu belədir. Paşinyan hökuməti isə bunlara qarşı hansısa əks həmlə edə bilmir".

Barseq Arçuruyan adlı biri "Facebook"da Paşinyan tərəfdarlarının daha çox rəy bildirdiyi qrupda maraqlı bir şərhlə diqqət çəkib və bununla da onların kəskin tənqidi ilə üzləşib. O yazıb: "Paşinyan da Sarkisyan yolu ilə gedəcək. Dövləti talamaqla cibini dolduracaq. Seçkilərdən sonra dediklərimi xatırlayın! Gözləri doymaq bilməyəcək. Gündən-günə işsizlikdən ölkəni tərk edənlərin sayı artır. Paşinyan kimi cəsarətsiz rəhbər Ermənistanın üzqarasıdır".

### "Paşinyanın işi "Facebook"da canlı yayıma qoşulub vaxt öldürməkdir"

Şamo Sasunyan adlı istifadəçinin "VKontakte" sosial şəbəkəsində Paşinyanın şəklini paylaşaraq "Ermənistanı parlaq gələcəyə aparan şəxsiyyət" şərhi çoxsaylı tənqidlərə, təhqirlərə tuş gəlib. Vartan Papinyan adlı istifadəçinin bu fotoya şərhi isə daha çox bəyənmə toplayıb: "Sənin dünyadan xəbərin yoxdur. Sən Ermənistanda yaşamırsan? Mətbuatı izləmirsən? Paşinyan hakimiyyətə gələndən ermənilər üçün nə edib? Yalançı vədlər, uydurma təkliflər. İşi "Facebook"da canlı yayım edib vaxt öldürməkdir. Bizim taleyimiz Tanrının ümidinə qalıb" (Əsəb işarəsi)

Loris Tevosyan adlı birinin "Twitter" sosial şəbəkəsindəki paylaşımı maraqla qarşılanıb: "Acı reallıq olsa da, qəbul edək ki, bizim Sarkisyandan nə bəxtimiz gətirmişdi ki, Paşinyandan da gətirə. Pafoslu çıxışlarına, onun aktyorluğuna yalnız Ermənistanda inanırlar. İlham Əliyev Ağdamda Paşinyana od püskürür, bizimki isə Artsaxa (Qarabağ-red.) oğlu Aşotun necə kef çəkdiyini görmək üçün gedir".

### "İlham Əliyev Ağdamda Yerevanı hədələdi, bizim isə susmaqdan başqa çarəmiz yoxdur"

Arutyun Manukyan adlı müharibə iştirakçısı da "Twitter"də çox maraqlı bir statusu ilə diqqət çəkib: "Diplomatik sferada İlham Əliyevə uduzursan, heç nə demirik. Lakin cəbhədəki döyüşlərdəki məğlubiyyət bir müharibə veteranı olaraq bizləri ciddi narahat edir, Paşinyan. İlham Əliyev Ağdamda Yerevanı hədələdi, bizim isə susmaqdan başqa çarəmiz yoxdu. Fərq göz qabağındadır".

"İravnuk" qəzeti isə yazır ki, Azərbaycan rəhbəri faktiki mövqeyini ortaya qoymaqla Ermənistana yenidən xəbərdarlıq edir: "Bundan əvvəl də Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın istəkləri təmin edilməsə, həyata keçirilən təcrid siyasəti davam etdiriləcək. Özü də bu məsələdə Azərbaycana dəstək verənlərin sayının artması Ermənistan üçün yaxşı heç nə vəd etmir. Ermənistanı İlham Əliyev qarşısında kim məğlub duruma saldı? Çox təəssüf ki, Ermənistan Azərbaycana qarşı savaşda bu məsələ ilə bağlı hansısa ciddi mövqe ortaya qoya bilmir".

Ermənistanda sosial şəbəkədə belə səpkidə şərhlərin və paylaşımların, həmçinin KİV-dəki məqalələrin sayı kifayət qədərdir. Bütün bunlar növbəti dəfə əsl həqiqətlərin nədən ibarət olduğunun artıq erməni cəmiyyəti tərəfindən də dərk olunduğunu aydın nümayiş etdirir.

Bəli, ermənilər də azərbaycanlıların, o cümlədən dövlət başçımızın illərdir söylədiklərini artıq çəkinmədən dilə gətirirlər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: *"Ermənistanı idarə edən kriminal xunta rejimi bütün dünya birliyi tərəfindən qınaq obyektinə çevrilməlidir. Mən demişdim ki, Ermənistanı idarə edən insanlar kriminal xunta rejiminin başçılarıdır. İndi bunu erməni xalqı deyir. Biz demişdik ki, onların generalları oğrudur. Biz demişdik ki, onların qəhrəmanları cinayətkardır, qorxaqdır, indi bunu erməni xalqı deyir. Yəni, biz dediyimizi indi erməni xalqı deyir və görür. Ermənistanda bu il baş vermiş dəyişikliklər onların işğalçılıq siyasətinin tam iflası deməkdir, bu, bir. İkincisi, bu hadisələr onu göstərir ki, bizim apardığımız siyasət öz nəticəsini verir".*

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# *Xarici İşlər Nazirliyi:* "Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərimizdə 261 min hektar meşə sahəsi məhv edilib"

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti 6 noyabr - Müharibə və silahlı münaqişələr zamanı ətraf mühitin istismarının qarşısının alınması beynəlxalq günü ilə bağlı açıqlama yayıb. AZƏRTAC xəbər verir ki, açıqlamada 2001-ci ildən etibarən BMT Baş Assambleyasının 6 noyabr tarixini müharibə və silahlı münaqişələr zamanı ətraf mühitin istismarının qarşısının alınması beynəlxalq günü elan etdiyi bildirilir. Qeyd edilir ki, Ermənistanın hərbi təcavüzü Azərbaycan Respublikasının təbiətinə, bioloji müxtəlifliyinə, ümumilikdə, bölgənin ekoloji durumuna ciddi ziyan vurub, ətraf mühitin deqradasiyası ilə nəticələnən fəsadlara gətirib çıxarıb, bölgənin təbii ehtiyatları davamlı istismara məruz qalıb. Hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərin 261 min hektar meşə sahəsi, o cümlədən qiymətli meşə sahələri, təbiət abidələri və pasportlaşmış 145 Şərq çinarı məhv edilib. Eyni zamanda, bu ərazilərdə Azərbaycan Respublikasının "Qırmızı kitabı"na daxil edilən müxtəlif bitki və heyvan növlərinin böyük hissəsi, xüsusi əhəmiyyətli və mühafizə olunan təbiət əraziləri, habelə nadir biomüxtəliflik nümunələri məhv edilib.

İşğal olunmuş ərazilərdən keçən təbii su mənbələrimiz Ermənistan tərəfindən genişmiqyaslı çirklənməyə məruz qalır. Araz və Kür çaylarının qolları olan Oxçuçay və Ağstafaçayın Ermənistan tərəfindən kəskin çirkləndirilməsi nəticəsində sözügedən çaylarda canlı aləmin yaşayışı üçün ciddi təhlükə yaranıb. Tərtər çayı üzərində inşa edilmiş və 100 min hektardan çox əkin sahəsinin suvarılmasına hesablanmış Sərsəng su anbarından işğalçı qüvvələr qış mövsümündə sahələrin su altında qalması üçün istifadə edir, yay aylarında isə kəskin su qıtlığı yaratmaqla dağətəyi və aran hissədə məskunlaşan 400 min əhalini təhlükə altında saxlayır. Təsadüfi deyil ki, 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunan Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi ilə bağlı qətnamədə Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi tələb olunub.

Azərbaycan Respublikasının işğal altında saxlanılan ərazilərində 163 faydalı qazıntı yataqları, o cümlədən qızıl, civə, mis, qurğuşun, sink, daş kömür və digər sərvətlər ermənilər tərəfindən talan edilir. İşğal olunmuş ərazilərin təbii sərvətləri istismar edilən zaman ətraf mühit standartlarına riayət olunmur və nəticədə ətraf mühitə də ciddi zərər vurulur.

Beynəlxalq hüququn müvafiq müddəalarına və öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərə baxmayaraq, işğal etdiyi Azərbaycan ərazilərində ətraf mühiti və təbii sərvətləri istismar edən Ermənistanın bu siyasəti bölgənin dayanıqlı inkişafı və tərəqqisinə münasibətdə tutduğu laqeyd və qeyri-konstruktiv mövqeni bir daha bariz şəkildə nümayiş etdirir.

Beynəlxalq ictimaiyyət, xüsusilə də Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz fəaliyyətə və təbii ehtiyatların, ətraf mühitin istismarına bu və ya digər şəkildə fiziki və hüquqi şəxslərin iştirakı ilə cəlb olunan ölkələr beynəlxalq hüququn ciddi pozulması halının davam etdirilməsinə hər hansı şəkildə yardım etməkdən çəkinməlidirlər.

# PAMBIQÇILIQ İKİNCİ HƏYATINI YAŞAYIR

## Yığım mütəşəkkil, məhsuldarlıq yüksəkdir

Bu il Goranboyda bol pambıq yetişdirilib. Sahələr ağ örpəyə bürünüb. Rayon icra hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini Elçin İsmayılov da bunu təsdiq etdi. Dedi ki, yığım sürətlə gedir, istər kombaynla, istərsə də əllə yığımda mütəşəkkillik var. Əvvəllər də pambıqçılıq rayonu kimi tanınan Goranboyda məlum səbəblərə görə bu gəlirli sahəyə ögey münasibət bəslənmiş və pambıqçılıq, demək olar ki, unudulmuşdu. Dövlət başçısı İlham Əliyevin ölkəmizdə pambıqçılığın yenidən inkişaf etdirilməsi ilə bağlı təşəbbüsünə ilk qoşulanlardan biri də Goranboydur. Təcrübəli pambıqçılar hesabına qısa vaxt ərzində böyük işlər görüldü. İndi rayonda 41 kənddə pambıq əkilir və belə kəndlərin sayı ildən-ilə artır.



Bu il də fermerlər bol məhsul üçün gərgin çalışmışlar. Onların hər biri ilin əvvəlində öhdəlik götürmüş və ona əməl etmək üçün bütün imkanlardan maksimim istifadə etmişdir. Bunun nəticəsidir ki, artıq bir neçə kənddə yığım başa çatmış, götürülmüş öhdəlikdən çox pambıq təhvil verilmişdir. Məsələn, Qırıqlı kəndi 234, Rəhimli kəndi 129, Veyisli kəndi 118, Quşçular kəndi 196, Qızılhacılı qəsəbəsi 759, Goranboy şəhəri 619 ton pambıq tədarük etmişdir. Bunlar da nəzərdə tutulduğundan xeyli çoxdur.

Yığımın gedişi ilə bağlı mövcud vəziyyəti öyrənmək üçün rayonun bir neçə kəndində olduq. İlk tanışlığa Qızılhacılı qəsəbə sakini Ramil Süleymanovun sahəsindən başladıq. Göz işlədikcə uzanan ağappaq pambıq tarlaları gərgin əməkdən xəbər verirdi. Fermerlə söhbətdən öyrəndik ki, pambıq onun üçün əsas gəlir mənbəyidir. Odur ki, hər il əkin sahəsini artırır. Keçən il 6 hektarda pambıq





əkən fermer hər hektardan 40 sentner məhsul toplamışdır. Bu il kənd sakinləri ilə bağladığı müqaviləyə əsasən əkin sahələrinin həcmini 8 hektara çatdırıb. Deyir ki, keçən ildən fərqli olaraq, bu il məhsul boldur. Təxmini hesablamaya görə, hər hektardan azı 45 sentner pambıq götürəcək. Yığımı əsasən maşınla aparan fermer bunun iqtisadi cəhətdən daha səmərəli olduğunu söylədi.

Ümumiyyətlə, Qızılhacılı qəsəbəsində pambıqçılığa maraq böyükdür. Bu il kənddə 65 fermer 379 hektarda pambıq əkib. Ən çox pambıq əkən fermerlərdən Əli Pirimovun, Yunis Qəhrəmanovun və İlham Allahverdiyevin tarlalarında da bol məhsul yetişdirilib.

Fermerlər dedilər ki, həmişə olduğu kimi, bu il də suvarma suyunun çatışmazlığı onlara bəzi problemlər yaşatdı. Lakin mövcud artezian quyularından, eləcə də Qarabağ kanalından səmərəli istifadə etməklə bu problem, demək olar ki, aradan qaldırıldı.

Növbəti tanışlığımız rayonun Ballıqaya kəndində Elşən Novruzovun sahəsi ilə oldu. Burada da bol pambıq yetişdirilib. Fermerin sözlərinə görə, keçən il 5 hektarda pambıq əkmişdi. Amma pambığın iqtisadi cəhətdən gəlirli olduğunu görüb, bu il daha 3 hektarda əkin aparıb. Sahələrin 4 hektarı maşınla, 4 hektarı əllə yığılır. Hələlik məhsuldarlıq pis deyil. Hər hektardan 30 sentnerdən çox pambıq götürülür.

Fermer bildirdi ki, bu il pambığın hər kiloqramına görə subsidiyanın 5 qəpik artırılması, dövlət tərəfindən hər hektara görə 50 manat əlavə pul ödənilməsi pambıqçıları daha da ruhlandırıb. Odur ki, o, gələn il pambıq sahələrini bir qədər də artırmağı qarşısına məqsəd qoyub.

Təsərrüfatlarda olarkən öyrəndik ki, əllə pambıq yığanların əməkhaqqı elə həmin gün verilir. Bu, pambıq yığımına çıxan hər kəsi razı salır. Ballıqaya kəndinin sakinləri Şəhla Hüeynova, Məlahət Əliyeva, Sima Quliyeva və başqaları dedilər ki, əməkhaqlarının ödənilməsində heç bir problem yoxdur. Fermer Elşən Novruzov isə mövsüm ərzində yığdıqları pambığa görə 800-1000 manat əməkhaqqı alanların olduğunu bildirdi.

Hazırda Goranboyda pambıq yığımı sürətlə davam edir. Fermerlər min bir əziyyətlə yetişdirdikləri məhsulu vaxtında toplamaq üçün əlverişli keçən hava şəraitindən maksimum istifadə etməyə çalışırlar. Onlar əmindirlər ki, 10 min ton pambıq verəcəkləri barədə götürdükləri öhdəliyə əməl edəcəklər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## «Ağ qızıl»a maraq artır



Ağsu tarixən iqtisadiyyatını aqrar sahənin hesabına quran, inkişaf etdirib gücləndirən bölgələrdəndir. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Elxan Abdullayev deyir ki, uzun illər pambıqçılıqla məşğul olan və bu sahədə bir sıra uğurlar əldə edən Ağsuda pambıqçılıq yenidən dirçəlir: "Pambıqçılığın kənd təsərrüfatının inkişafında böyük rol oynadığını dönə-dönə bildirmiş ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi 1970-ci illərdə bu sahəyə böyük önəm vermiş, pambığı neftlə müqayisə edərək "Neft qara qızıldırsa, pambıq ağ qızıldır" demişdir. Həmin dövrlərdə pambıqçılığa Ağsu rayonunda da xüsusi diqqət verilmişdir".



Müsahibimiz bildirdi ki, 2017-ci ildə Ağsu rayonunda 2500 hektar sahədə pambıq əkilmiş, sahələrdən 2807,2 ton pambıq yığılmışdı. Toplanmış məhsulun 1690,2 tonu Ucar Pambıq Zavoduna, 1117 tonu "Ağsu Kənd Təsərrüfatı MMC" nəzdində fəaliyyət göstərən məntəqəyə təhvil verilmişdi. İstehsal olunan məhsula görə pambıqçılara 280,7 min manat subsidiya ödənilmişdi. Keçən il həmçinin rayonda pambıqçılığın inkişafı hesabına 5 mindən çox adam işlə təmin edilmişdi.

Cari ildə isə rayon üzrə 2600 hektar sahədə pambıq əkilib, 19 inzibati ərazi dairəsində 167 istehsalçı ilə müqavilə bağlanıb. Onu da qeyd edək ki, pambıq əkilən torpaqlar suvarılan ərazilərdir. Sahələrin suvarılması Yuxarı Şirvan kanalı, onun Ağsu Maşın qolu, Ağsu çayı, Girdiman çayı və Cavanşir su anbarı vasitəsilə həyata keçirilib. Məhsuldarlıq üzrə hədəf hər hektardan 20 sentnerdən çox məhsul toplamaqdır.

Artıq rayon üzrə 1700 tondan çox pambıq yığılıb. Məhsulun müəyyən hissəsi maşınlar vasitəsilə toplanıb. Yeri gəlmişkən, bu il rayonda pambıqçılıq hesabına 3500 nəfər işlə təmin edilib.

"P Aqro" MMC Ağsu filialının rəhbəri Cahangir Həsənov bildirdi ki, onlar əsasən yerlərdə pambıqçılığın inkişafına dəstək verirlər - pambıqçılıqla məşğul olan fermerlərlə müqavilə bağlayır, müqavilə öhdəliklərinə uyğun olaraq onları ilkin maliyyə vəsaiti və texniki vasitələrlə təmin edirlər.

C.Həsənov onu da vurğuladı ki, aqrar sektorun dövlət tərəfindən stimullaşdırılmasının əsas istiqamətlərindən biri də bəzi kənd təsərrüfatı avadanlıq, texnika və texnologiyalarına, materiallarına idxal gömrük rüsumlarında güzəştlərin tətbiq olunmasıdır. Bu güzəştlər ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalının inkişaf etdirilməsində və istehsalın səmərəliliyinin yüksəldilməsində mühüm rol oynamaqla yanaşı, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək və onları xarici bazarlara çıxarmaq imkanı yaradır.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

## 200 min ton həddi keçildi

Əgər dünəndən başlamış yağışları nəzərə almasaq, builki iqlimi əsl pambıq havası adlandırmaq olar. Əgər noyabr ayında temperatur gündüzlər +15 dərəcədən aşağı düşmürsə, taxılçıların səbirsizliklə gözlədikləri yağmurdan günlərlə, bəzənsə həftələrlə "xəbər" olmursa, pambıqçının havalardan umu-küsü etməyə haqqı yoxdur. İnsafən, onlar bunu heç etmir, sadəcə, zəhmətlərinin barını toplayırlar. Nəticələr də pis deyil, bütün gözləntiləri nəinki doğruldur, hətta üstələyir.

Dövlət Statistika Komitəsinin noyabrın 6-na olan məlumatına görə, ölkə üzrə tarlalardan 201,2 min tondan çox pambıq yığılıb ki, bu da ötən ilin eyni dövründəkindən 34,5 min ton və ya 20,7 faiz çoxdur. Tədarük olunmuş bu qədər pambığın 26,6 min tonu Saatlı, 21,5 min tonu Bərdə, 20,9 min tonu Ağcabədi, 18,9 min tonu Biləsuvar, 18,7 min tonu Beyləqan, 15,6 min tonu İmişli, 14,9 min tonu Sabirabad rayonlarının payına düşür. Keçən ilin müvafiq dövründəki göstəriciləri xeyli üstələyən rayonlar sırasında pambıq istehsalına ötən ildən başlayan Samux (26 dəfə), Yevlax (2,1 dəfə), Hacıqabul (2 dəfə), Kürdəmir (1,5 dəfə), Goranboy (41,9 faiz), Salyan (27,6 faiz), Zərdab (19,9 faiz), Neftçala (18,3 faiz), Ağdaş (16 faiz) və digərlərinin adlarını çəkmək olar.

Qarabağın erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş əraziləri ilə həmsərhəd bölgələrində də pambıq istehsalı sahəsində çalışanların sayı ilbəil artır. Həm gəlirli olması, həm də dövlətin maddi dəstəyi daha çox Qarabağ kəndlisini bu sahəyə cəlb edib. Nəticədə noyabrın 6-na olan məlumata görə, Ağdam pambıqçıları 4916,3, tərtərlilər 7092,8, Füzuli fermerləri 1808,4 ton pambıq tədarük etmişlər ki, bu da həmin rayonların 2017-ci ilin mövsümünün eyni dövründəkindən çoxdur.

**06.11.2018-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 06 noyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **201212,75** | **166722,92** | **120,7%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 20906,77 | 15878,86 | 131,7% |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 4916,37 | 5001,47 | 98,3% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 3422,42 | 2949,70 | 116,0% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1687,45 | 2051,30 | 82,3% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 18793,80 | 12968,48 | 144,9% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 21517,14 | 17087,72 | 125,9% |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 18988,66 | 20734,41 | 91,6% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 1009,50 | 861,90 | 117,1% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 1808,47 | 1544,70 | 117,1% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 7200,03 | 5075,30 | 141,9% |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 1012,76 | 518,35 | 2 dəfə |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 15698,80 | 10935,30 | 143,6% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 5822,20 | 3784,52 | 1,5 dəfə |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 9083,44 | 7679,57 | 118,3% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 26663,48 | 22946,60 | 116,2% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 14965,33 | 14981,91 | 99,9% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 9164,36 | 7181,10 | 127,6% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 875,85 | 33,72 | 26 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 7092,81 | 6967,32 | 101,8% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 1402,97 | 1635,86 | 85,8% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 4917,91 | 2349,93 | 2,1 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 4262,23 | 3554,90 | 119,9% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

Yığım isə davam edir. İnanmırıq ki, ara-sıra düşən payız yağışları pambıqçıların əlini işdən soyuda. Çünki tarlalarda hələ məhsul var. O məhsul ki, təkcə elin sərvəti yox, həm də onu əkib-becərmiş kəndlinin halal qazanc mənbəyidir.

## Pambıqçının zəhməti bəhrə verəndə...









Sabirabad pambıqçıları hazırda qüvvələrini yetişdirdikləri məhsulu tez və itkisiz toplamağa yönəldiblər. İndi rayonun Qaratəpə kəndində də pambıqçılar məhz bu qayğılarla yaşayırlar. Burada fermer Salman Bayramovun 2 hektarlıq pambıq sahəsinin məhsulunun xeyli hissəsi yığılıb.

Salman Bayramovun ailəsinin dörd nəfər üzvü kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğuldur. Bu il onlar 2 hektar sahədə pambıq məhsulu arayaərsəyə gətiriblər. Fermerin hər hektardan 40 sentner pambıq götürməyə inamı var. Yığıma bacarıqlı mexanizator Şərəf Məhəmmədov da cəlb olunub.

Salman Bayramov 2 hektar sahədə buğda və daha 2 hektarda arpa əkib-becərir. Fermer dövlətin kənd əməkçilərinə məhsul yetişdirməkdə göstərdiyi qayğı və köməkdən çox razılıq edir. Ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsi onun da ürəyincədir. Deyir ki, bu, ölkəyə gəlir gətirməklə yanaşı, həm də kənd adamının dolanışığına böyük dəstəkdir.

***Foto Ağaəli MƏMMƏDOVUNDUR,***
***"Azərbaycan"***

## Bax beləcə...

Kənd təsərrüfatının ənənəvi sahəsi olan pambıqçılığın inkişafına dövlət səviyyəsində artırılan qayğı İmişli rayonunda da öz bəhrəsini verir. Torpağı münbit, adamları əməksevər olan İmişlidə pambıqçılıq böyük potensiala malikdir. İndiyədək həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsi də fərəhlidir. Həm pambıq əkinlərinin sahəsi genişləndirilir, həm də məhsul istehsalı ildən-ilə artır.



Bu il rayonda 13.645 hektar sahədə bol pambıq yetişdirilmişdir. Göz işlədikcə uzanan tarlalar başdan-başa ağ örpəyə bürünmüşdür. Böyük zəhmət, alın təri hesabına yetişdirilmiş qiymətli sərvəti tez və itkisiz yığıb tədarük etmək üçün texnika da, əmək ehtiyatları da səfərbər edilmişdir. Artıq neçə vaxtdır ki, məhsul yığımının qızğın çağıdır. İndiyədək tədarük məntəqələrinə 10 min tondan çox "ağ qızıl" təhvil verilmişdir. Məhsulu yığılan sahələrin orta məhsuldarlığı da qənaətbəxşdir. Birinci yığımda hər hektardan orta hesabla 20 sentnerdən çox "ağ qızıl" götürülüb. Bu da yaxşı göstəricidir.

İmişli Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Səlim Məhərrəmov pambıqçılığın inkişafına dövlət dəstəyinin əhəmiyyətindən söz açaraq dedi:

- İmişli kəndlisinin pambıqçılıq sahəsində zəngin təcrübəsi var. Sovet dönəmində İmişli respublikanın qabaqcıl pambıqçılıq mərkəzlərindən biri kimi tanınırdı. Ənənəvi kənd təsərrüfatı sahəsi olan pambıqçılığı inkişaf etdirmək, bu sahədə əvvəlki şöhrəti qaytarmaq barədə dövlət başçısının verdiyi tapşırıq və tövsiyələr torpağa və zəhmətə bağlı İmişli kəndlisinə yeni həvəs, qol-qanad verib. İnkişaf etdirilən pambıqçılıq kəndlinin həyat şəratini, gün-güzəranını yaxşılaşdırır. Bu ildən etibarən hər kiloqram pambığın qiyməti 75 qəpik olub. Bunun 60 qəpiyini pambığı alan şirkət, 10 qəpiyini isə subsidiya şəklində dövlət ödəyir. Pambıqçılığın inkişafına artan dövlət dəstəyi sayəsində kəndlərimizdə işsiz adamlar da, demək olar ki, yoxdur.

Havaların soyuması payızın erkən gəlişindən soraq verir. Bunu nəzərə alaraq, yetişdirilmiş məhsulu tez və itkisiz yığıb tədarük etmək üçün rayonda texnikaya geniş meydan verilib. Ağ örpəkli tarlalarda 40-a yaxın pambıqyığan maşın işləyir. Beləcə, hər gün orta hesabla 550-600 ton məhsul yığılır. Səxavət İsmayılovun, Elbrus Abbasovun, İmdad Məhərrəmovun və Nadir Vəliyevin rəhbərlik etdikləri fermer təsərrüfatları yığımda daha çox fərqlənir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# İspaniyada "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda beynəlxalq konfrans işini davam etdirib

İspaniyanın paytaxtı Madriddə "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda beynəlxalq konfrans noyabrın 5-də günün ikinci yarısında işini davam etdirib.



AZƏRTAC xəbər verir ki, minə yaxın nümayəndənin iştirak etdiyi tədbirin ikinci hissəsi bədii proqramla başlayıb. Bədii hissədə Azərbaycanın xalq mahnısı "Sarı gəlin" ifa edilib.

Evsen Fondunun rəhbəri Əli Evsen tədbirdə çıxış edərək bildirib ki, bu gün insanların qarşısında duran əsas vəzifə gələcək nəsillər üçün daha etibarlı, daha parlaq gələcək qurmaqdır. Bunun üçün isə dinlərarası və sivilizasiyalararası dialoqu inkişaf etdirmək lazımdır. Gənclərimizin ziyanlı təsirlərə düşməsinin qarşısını almalı, onları doğru yola yönəltməliyik.

İspaniya Ədliyyə Nazirliyinin nümayəndəsi Pablo Kasado dialoq və qarşılıqlı anlaşmanın dünyamızdakı problemlərin həlli baxımından çox önəmli olduğunu bildirib. O, din xadimlərinin bu işdə daha yaxından iştirakının vacibliyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə deyib ki, tarix boyu Şərq ilə Qərb arasında islam dünyasının əsas mədəni, dini, sivilizasiya mərkəzlərindən olan Azərbaycan multikulturalizmə, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa, islam mədəniyyətinin dünyada təbliğinə böyük töhfələr verib. Bu gün də multikultural Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, yəhudilər və digər din mənsubları dostluq, qardaşlıq şəraitində yaşayır, dövlətimizin diqqət və himayəsindən yararlanırlar.

"Dünyada dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, antisemitizm, radikalizm təzahürlərinin tüğyan etdiyi, miqrant böhranı yaşandığı müasir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev qlobal miqyasda ümumbəşəri ideyaların ətrafında birləşməyə çağırır, multikulturalizm və islam həmrəyliyi ideyalarının dövlət siyasətinin prioritet istiqamətləri olmasını bəyan edir. Bütün dünyaya çağırış olaraq ölkəmizdə "Multikulturalizm" və "İslam həmrəyliyi" illərinin elan olunması Azərbaycan Prezidentinin XXI əsrdə həyata keçirdiyi müdrik təşəbbüslərdir. Bu gün Azərbaycan öz üzərinə tarixi missiya götürərək müxtəlif beynəlxalq forumlara, qlobal hərəkata çevrilmiş "Bakı Prosesi"nə rəhbərlik edir. Qafqaz Müsəlmanları İdarəsinin yanında "Dialoqdan həmrəyliyə: dinlər və sivilizasiyalararası əməkdaşlıq" mərkəzinin təsis edilməsi bu ənənənin davamı kimi dəyərləndirilməlidir. Yeri gəlmişkən, Azərbaycan dövləti İspaniyanın həmtəşəbbüsçüsü olduğu Sivilizasiyaların Alyansı ideyasına da böyük önəm verir və bunun bariz nümunəsi BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna evsahibliyi etməyimiz oldu. Biz bunu mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin təşviqi sahəsində fəaliyyətimizin yüksək qiymətləndirilməsi əlaməti kimi qəbul edirik.

Biz, din xadimləri dünyada baş verən hadisələrə ilahi ədalət və insani dəyərlər baxımından qiymət veririk. Bu günlərdə Amerika Birləşmiş Ştatlarının Pitsburq şəhərindəki sinaqoqda və Misirdə qibti zəvvarlara qarşı törədilmiş terror aktları din xadimləri tərəfindən ilahi dəyərlərin pozulması kimi səciyyələnir. Bu siyahıya Azərbaycan ərazisinin bir hissəsinin uzun illərdir davam edən işğalını, Xocalı şəhərində soyqırımı törədilməsini, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrilməsini, zəbt olunmuş ərazilərimizdə məscid, kilsə, sinaqoq və qəbiristanlıqların məhv edilməsini əlavə etmək istəyirəm. Bu gün dünya belə cinayətlərə göz yumarsa, gələcəyini də itirə bilər. Halbuki Allah-Təala bizə xeyir əməllərdə, savab işlərdə bərabər olmağı, birgə fəaliyyət göstərməyi əmr edib", - deyə Şeyxülislam Allahşükür Paşazadə bildirib.

QMİ sədri sivilizasiyalararası dialoqa əməli töhfələr verən İspaniya dövlətinə və hökumətinə bu tədbirə verdiyi dəyərə görə təşəkkür edib.

İsrailin keçmiş Prezidenti Dalia İtzik deyib ki, dünyada sülhün təmin edilməsi hər birimizin borcudur. Bu baxımdan bütün insanlar əl-ələ verməli, birgə çalışmalıdırlar.

Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına məktubu oxunub.

Məktubu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov oxuyub.

Məktubda deyilir ki, mədəniyyətlər və dinlər arasında dialoq dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Müasir dövrün çağırışları bəşəriyyət qarşısında bu sahədə ciddi vəzifələr qoyur. Təsadüfi deyil ki, etnik və dini müxtəlifliyin milli sərvət kimi qorunduğu, bütün konfessiyaların azad fəaliyyətinə bərabər şəraitin yaradıldığı Azərbaycan Respublikasında multikulturalizm və tolerantlıq dövlət siyasətinin prioritet istiqamətləri sırasında yer tutur. Azərbaycan tarixən fərqli sivilizasiyaların qovuşuğunda oynadığı mənəvi körpü rolunu bu gün də uğurla həyata keçirir. Ölkəmiz müxtəlif mədəniyyətlərin ahəngdar münasibətlərinə və humanitar əməkdaşlıq ideyalarına hərtərəfli dəstək verir, bununla bağlı çoxsaylı qlobal təşəbbüslər irəli sürür, müntəzəm olaraq Mədəniyyətlərarası Dialoq və Beynəlxalq Humanitar forumlar təşkil edir. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun və Dünya Dinləri Liderlərinin Zirvə görüşünün Bakıda keçirilməsi beynəlxalq birliyin Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirdiyini göstərir. Dövlət başçısı əmin olduğunu bildirir ki, ənənəvi xarakter almış Madrid beynəlxalq konfransında aparılan müzakirələr və irəli sürülən səmərəli təkliflər dünyada dinlərarası dialoqun təşviqinə, sülhə və qarşılıqlı anlaşmaya dəyərli töhfələr verəcək.

Sonra İspaniyanın Kralı VI Felipenin konfrans iştirakçılarına məktubu oxunub.

Daha sonra konfransın yekun bəyannaməsi qəbul edilib.

Sonda tədbir iştirakçılarının şərəfinə ziyafət verilib.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Madriddə İspaniya Senatının sədri ilə görüşüb

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə İspaniyanın paytaxtı Madriddə "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda beynəlxalq konfrans çərçivəsində İspaniya Senatının sədri Pio Qarsia Eskudero ilə görüşüb. AZƏRTAC xəbər verir ki, QMİ sədri konfransın keçirilməsində göstərdiyi dəstəyə görə İspaniya hökumətinə təşəkkür edib. Bildirib ki, Azərbaycan ilə İspaniya arasındakı mövcud münasibətlər gələcəkdə də bu kimi tədbirlərin keçiriləcəyini deməyə əsas verir.

Allahşükür Paşazadə Prezident İlham Əliyevin salamlarını İspaniya Senatının sədrinə və ispan xalqına çatdırıb və onu Azərbaycana dəvət edib.

Senatın sədri Pio Qarsia Eskudero "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda beynəlxalq konfransın xalqlarımız arasında münasibətlərin daha da inkişafı baxımından əhəmiyyətli olacağına inandığını bildirib.

Görüşün sonunda Senatın sədrinə xatirə hədiyyəsi təqdim olunub.


*Təkrar*

## Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin Sumqayıt Regional Reklam İdarəsi

*açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçiriləcəkdir.

LOT-1 Sedan tipli nəqliyyat vasitələrinin satın alınması.
LOT-2 Minivan tipli nəqliyyat vasitələrinin satın alınması.

Tender iştirakçıları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən lotlar üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış və ikiqat zərfdə, yazılı surətdə təqdim etməlidirlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının bu sahədə səriştəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Qasımov Telman Məhəmməd oğlu, tel: +99418 654-50-50

Ünvan: Sumqayıt şəhəri, Bakı küçəsi 60, Sülh Plaza otaq №604

Maraqlananlar Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu hər bir LOT üzrə 250 (iki yüz əlli) manat məbləğində iştirak haqqını ödədikdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

Təşkilatın adı: Sumqayıt Regional Reklam İdarəsi
Bank: Kapital Bank ASC Sumqayıt I filialı
VÖEN: 9900003611
H/h: AZ24AIIB38060019440334338125
VÖEN: 2904721641
Kod: 200253
Müxbir hesab: AZ37NABZ01350100000000001944
SWIFT: AIIBAZ2X

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);
- tender təklifinin ümumi qiymətinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;
- müvafiq mallar üzrə mənşə və uygunluq sertifikatları;
- müqaviləni yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında məlumat.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13 noyabr 2018-ci il saat 17:00-dək, tender təklifi və bank təminatını isə möhürlənmiş və ikiqat zərfdə 29 noyabr 2018-ci il saat 17:00-dək Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təkliflər 30 noyabr 2018-ci il saat 11:00-da Sumqayıt Regional Reklam İdarəsində (ünvan: Sumqayıt şəhər, Bakı küçəsi 60, Sülh Plaza otaq №604) açılacaqdır.

Təklif zərflərinin açılışında iddiaçıların səlahiyyətli nümayəndələri də iştirak edə bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***


# Çexiyalılar İsmayıllı rayonuna səfərdən məmnun qayıdıblar

Cənubi Çexiya Regionu ilə İsmayıllı rayonu arasında bağlanmış əməkdaşlıq xartiyası çərçivəsində Çexiya nümayəndə heyəti noyabrın 4-də İsmayıllı rayonuna səfər edib. Qonaqlar səfərin ilk günü Lahıca getmiş, orada yerli sənətkarların yaratdıqları əl işləri ilə tanış olmuş, bu qəsəbənin zəngin tarixi, keçmişi barədə məlumatlandırılmışlar.



Ertəsi gün İsmayıllı Rayon İcra Hakimiyyətində keçirilən görüşdə RİH-in başçısı Mirdaməd Sadıqov İsmayıllıdan gedən nümayəndə heyətinin Çexiyanın Qluboko Na Vitavu şəhərində səmimi qarşılandığından söz açmış, səfərin xatirələrdə dərin iz saldığını bildirmişdir.

M.Sadıqov daha sonra deyib ki, iqtisadiyyatın neftdən asılılığına son qoyulandan sonra Azərbaycanın inkişaf miqyası daha da genişlənib və sürətlənib. Bunu İsmayıllı rayonunun timsalında da aydın görmək olur. Rayonda kənd təsərrüfatı ilə yanaşı, sənaye də inkişaf edir. Xalçaçılıq və tikinti materialları istehsalı sənayedə əsas gəlir gətirən sahəyə çevrilib. İsmayıllının büdcəsi üçüncü ildir ki, özünümaliyyələşdirmə əsasında formalaşır. Ismayıllı müxtəlif mədəniyyətlərin, dinlərin, dillərin qovşağı olan bir tolerant rayondur.

Nümayəndə heyətinin rəhbəri, Çexiya Respublikasının senatoru, Cənubi Çexiya Qluboko Na Vitavu şəhərinin meri Tomaş Jirsa Azərbaycanda, o cümlədən İsmayıllıda olduqlarından məmnun qaldıqlarını bildirib, onlara yaradılan şəraitə görə təşəkkür edib. Nümayəndə heyətinin rəhbəri deyib ki, o, ilk dəfə Bakıda 1990-cı illərdə olub. O vaxtdan şəhər çox dəyişib, inkişaf səviyyəsinə görə hətta ən inkişaf etmiş şəhərlərlə rəqabət aparmaq gücündədir. İsmayıllı əyalət şəhəri olsa da, ölkənizdə gedən inkişafdan geri qalmayıb. Qonaq Azərbaycanın, o cümlədən İsmayıllının yüksəliş yolunda belə inamla addımlamasına dostcasına sevinərək bundan qürur duyduğunu və taleyüklü Dağlıq Qarabağ probleminin tezliklə həll olunmasını arzulayıb.

Görüşdən sonra 11 nəfərdən ibarət nümayəndə heyəti Heydər Əliyev Mərkəzində və Mədəniyyət Mərkəzində olublar. Mədəniyyət Mərkəzinin möhtəşəmliyi qonaqların diqqətini çəkib. Burada İvanovka və Lahıc folklor qrupunun çıxışı, Mədəniyyət Mərkəzinin təşkil etdiyi konsert maraqla qarşılanıb.

Çexiyalı qonaqlar "Qala divarları" önündə ağac əkmiş, Heydər Əliyev adına Parkda, Yapon bağında, "Aznar" MMC-də, İvanovka kəndində də olmuşlar.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Bakı V Beynəlxalq Teatr Konfransına yekun vurulub

Noyabrın 6-da Azərbaycan Dövlət Musiqili Teatrında Bakı V Beynəlxalq Teatr Konfransına yekun vurulub.



AZƏRTAC xəbər verir ki, beynəlxalq konfransın sonuncu günü plenar iclasa AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun "Teatr, kino və televiziya" şöbəsinin müdiri Vidadi Qafarov (Azərbaycan) və Anadolu Universitetinin professoru Ebru Gökdağ (Türkiyə) moderatorluq ediblər.

Bakı Beynəlxalq Teatr Konfransının icraçı katibi Şaiq Səfərov bağlanış nitqində Bakı V Beynəlxalq Teatr Konfransına göstərilən dəstəyə görə Azərbaycan dövlətinə, Mədəniyyət Nazirliyinə və ABŞ, Kanada, Meksika, Almaniya, Fransa, İtaliya, Avstriya, Serbiya, Yunanıstan, Slovakiya, Sloveniya, Bolqarıstan, Türkiyə və digər ölkələrdən olan mədəniyyət, incəsənət, elm xadimləri iştirakçılarına təşəkkürünü bildirib.

Şaiq Səfərov qeyd edib ki, "XXI əsr teatr fəlsəfəsi: mövcudluq konsepsiyası" adı altında keçirilən konfrans Mədəniyyət Nazirliyi, Teatr Xadimləri İttifaqı və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə reallaşıb.

Konfrans Prezident İlham Əliyevin 2009-cu il 18 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı"na əsasən keçirilir. Builki konfransda 40-dan çox ölkədən 110 xarici qonaq iştirak edib. Məruzəçilər arasında nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri yer alıb.

Şaiq Səfərov konfrans iştirakçılarını "YARAT" Müasir İncəsənət Məkanının təşkilatçılığı ilə keçiriləcək beynəlxalq festivala dəvət edib.

Sonda xatirə şəkli çəkdirildi.

# Bir şəhər var, addımlayır dalğaları yara-yara...



Bu gün dünyanın neft-qaz regionlarında aparılan axtarış-kəşfiyyat işlərinin, habelə karbohidrogenlərin hasilatının əsas hissəsi dəniz akvatoriyalarının payına düşür. Demək olar ki, indi artıq bütün okean və dənizlərin şelfində iş aparılır. Dənizin hətta 1000 metrdən aşağıda yerləşən dərinlikləri fəth olunur. 70 il əvvəl isə bütün bunlar təsəvvürəgəlməz işlər idi. Bu barədə deyilənlər, yazılanlar ya əfsanə, ya da əlçatmaz həqiqət təsiri bağışlayırdı. 69 il əvvəl, 1949-cu il noyabrın 7-də bu əfsanə Azərbaycanda gerçəkləşdi - "Neft Daşları"nda ilk quyu fontan vurdu və beləliklə, açıq dənizdə neft çıxarılmağa başlandı.

Xəzərin bu akvatoriyasında neftin varlığı barədə ilk mənbələr XVIII əsrin sonlarına təsadüf edir. Odur ki, burada XIX yüzillikdə və XX əsrin birinci yarısında da tədqiqatlar aparılmışdı. Lakin bu neft rayonunun mütəmadi geoloji tədqiqatlarına 1945-ci ildə keçmiş SSRİ Elmlər Akademiyasının xüsusi ekspedisiyası tərəfindən başlandı. Ekspedisiyaya Azərbaycan geoloqu Ağaqurban Əliyev başçılıq edirdi.

Xəzərin fırtınalı qoynunda aparılan mürəkkəb və gərgin axtarışlar dörd il çəkdi. Nəticədə neft rayonunun geoloji xəritəsi hazırlandı, sənaye üsulu ilə kəşfiyyatı planlaşdırıldı. 1948-ci ilin noyabr ayında qazılacaq ilk quyunun yeri müəyyənləşdirildi. 1949-cu ilin mart ayında inşaatçılar sərt qayaların üstündə ilk taxta evciyin quraşdırılmasını başa çatdırdılar.

Neft dənizin dibindən baş qaldırıb bir hissəsi suyun üzərində görünən qara daşlar yaxınlığında müşahidə olunduğundan buranı ilk vaxtlar "Qara daşlar" adlandırıblar. Böyük təşkilatçı Sabit Orucovun, təcrübəli qazma mühəndisi Yusif Səfərovun və kəşfiyyatçı-geoloq Ağaqurban Əliyevin təklifi ilə Bakı gəmi təmiri zavodlarından istifadədən silinmiş yeddi iri tonnajlı gəmi gətirilərək "Qara daşlar"ın yanında basdırılıb. Bundan sonra ərazi "Yeddi gəmi adası" adını alıb. Bu qeyri-adi ada Xəzərin fatehlərini fırtınalardan qoruyan sığınacağa və dənizin dərin qatlarına nüfuz etmək üçün istinad nöqtəsinə çevrilib.

Sonralar rəsmi olaraq "Neft Daşları" adlandırılan yataqda ilk buruq 1949-cu ilin aprelində quraşdırılıb, birinci kəşfiyyat quyusu isə həmin ilin iyununda qazılmağa başlayıb. Noyabrın 7-də ilk quyu neft fontanı vurub. Bu, dünyada dəniz nefti erasının başlandığı tarixdir.

Həmin vaxtdan başlayaraq Neft Daşlarında fasiləsiz olaraq neft və qaz hasil edilir. 1951-ci ildən yatağın ərazisində estakada və estakadayanı meydançalar tikilməyə başlayıb. İllər keçdikcə burada istehsal təyinatlı və sosialyönümlü infrastruktur genişlənib, dənizin qoynunda bənzərsiz şəhər yaranıb.

Neft Daşlarına hər gün gəmilər yan alır, vertolyotlar eniş edir. O, Bakıdan 100, Pirallahı adasından 50, Çilov adasından isə 30 kilometrlik məsafədə yerləşir. Burada insanlar vaxt metodu ilə, yəni növbə ilə işləyirlər - hər ayın yarısını dənizdə olur, yarısını quruda, ev-eşiklərində keçirirlər.

"Neft Daşları" NQÇİ-nin (Neft və Qazçıxarma İdarəsi) mədənləri və neft təsərrüfatı onlarca kvadratkilometr ərazini əhatə edir. Neft Daşlarında - polad dayaqlar üstündə 5 və 9 mərtəbəli yataqxanaların, mədəniyyət evinin, muzeyin, tibb-sanitar hissəsinin və s. tikilməsi, bir qarış torpağı belə olmayan məkanda park salınması, gül-çiçək əkilməsi onun "Möcüzə-şəhər", "Dünyanın səkkizinci möcüzəsi", "Möcüzələr adası" adlandırılmasına əsas verib.

Lakin bunlar əfsanə, möcüzə deyil, əsl reallıqdır. Hazırda burada yüzlərlə insan işləyir. Bunlar "Neft Daşları" NQÇİ-nin əməkçiləri, digər müəssisə və təşkilatların nümayəndələri - qazmaçılar, inşaatçılar, geofiziklər, rabitəçilər, tibb işçiləri və s. peşə sahibləridir.

Dəniz neftçiləri Xəzərin fırtınalı qoynunda, ekstremal şəraitdə işləyirlər. Bu insanlar haqqında əsərlər yazılıb, filmlər çəkilib, mahnılar bəstələnib. Ən dəyərli sözü isə onların haqqında ümummilli lider Heydər Əliyev deyib: "Neft Daşlarında işləyən hər bir kəs ən böyük hörmətə layiq bir insandır. Orada işləməyən, oranı görməyən, oranı ziyarət etməyən insan bunu təsəvvür edə bilməz".

Ulu öndər burada dəfələrlə olmuş, estakada və meydançaları gəzmiş, dənizin qoynunda hünər göstərən neftçilərlə görüşmüş, bir sözlə, Neft Daşlarını sevmişdi.

Neft Daşlarına bu münasibət Azərbaycan dövlətinin bugünkü iqtisadi siyasətində, Prezident İlham Əliyevin dəniz şəhərinin inkişafına və onun əməkçilərinə göstərdiyi qayğıda öz təcəssümünü tapır. Neft Daşlarının 55 və 60 illik yubileylərində dövlət başçısı polad özüllər üzərində qurulmuş şəhərin, fədakar neftçilərin qonağı olmuş, 65 illik yubileyində "Möcüzələr adası"nın əməkçilərinin böyük bir dəstəsini təltif etmişdir. Neft Daşlarını, dəniz neftçilərinin əməyini yüksək dəyərləndirərək demişdir: "Əgər vaxtilə Neft Daşlarında Azərbaycan neftçiləri ağır, çətin şəraitdə böyük qəhrəmanlıq göstərərək işlərə başlamasaydılar, ondan sonrakı layihələr ya gecikə, ya ümumiyyətlə, həll olunmamış qala bilərdi. Bu gün Azərbaycanın neft-qaz potensialının əksəriyyətini təşkil edən "Azəri-Çıraq-Günəşli" yataqlarının kəşfiyyatı və işlənilməsi məhz burada qoyulan təməl üzərində reallaşır".

Dənizin bəzən amansız olduğu da sirr deyil. Sərt dalğaların şahə qalxıb fəlakət törətdiyi günlər az olmayıb. Məsələn, 1957-ci il noyabrın 21-də gecə baş verən qasırğa iki briqadanın 21 üzvünün həyatına son qoyub. Onların arasında vaxtilə Neft Daşlarında ilk quyunu qazan Mixail Kaveroçkin də olub...

Amma dənizin cazibə qüvvəsi böyük, Azərbaycan neftçisinin iradəsi yenilməzdir. Dəniz neftçiləri qəhrəmanlıq salnaməsini davam etdirir, hasilatı nəinki sabit saxlamağa, hətta artırmağa nail olurlar. Keçən il burada 1 milyon ton neft hasil edilib - "Neft Daşları" son onilliklərin rekordunu təzələyib...

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

VƏTƏN SƏNƏ OĞUL DEYİR

# Düşmənə göz dağı olan qəhrəman

Gənc rayonlarımızdan olan Qobustanda idik. Burada əldə etdiyimiz məlumat bizi əvvəldən nəzərdə tutulmayan bir ünvana gətirib çıxartdı. Təxminən rayon mərkəzindən 25-30 kilometr uzaqlıqda yerləşən Sündü kəndinə yol aldıq. Gənc rayonun tarixin sirlərini özündə saxlayan qocaman bir kəndinə...



Səfərimizin məqsədi vardı. Həmin gün bu kəndin torpaqlarımızın müdafiəsi uğrunda canını fəda etmiş dəyərli övladlarından birinin - Cəmil Adıgözəlovun şəhidlik zirvəsinə ucalmasının 23 ili tamam olurdu. Hər il olduğu kimi, bu il də Cəmilin silah yoldaşları onun xatirə gününü qeyd edirdilər. Qəbirüstü abidənin ətrafına xeyli adam toplaşmışdı. Onların arasında kənd sakinləri, qohumları, ailə üzvləri ilə bərabər respublikanın müxtəlif guşələrindən gələn silahdaşları da vardı.

Cəmil Adıgözəl oğlu Adıgözəlov 1973-cü ildə Sündü kəndində anadan olub. 1990-cı ildə orta məktəbi bitirib. Qayğıkeşliyi, mehribanlığı həm ailədə, həm də dost-tanış arasında daim hiss olunub, onu sinif yoldaşlarının və müəllimlərinin sevimlisi edib. Cəmil 1990-cı ildə Göyçay Kənd Təsərrüfatı Texnikumunun Mexanika şöbəsinə daxil olub.

1992-ci ildə Azərbaycan Milli Ordusuna həqiqi hərbi xidmətə çağırılıb. Bacarığı, qabiliyyəti ilk gündən nəzəri cəlb edib. Komandir heyətinə daxil edilməsinə qərar verilib. Ona görə də hərbi hissənin göndərişi əsasında xüsusi kursu bitirərək leytenant rütbəsi alıb.

Cəmil döyüş bölgələrinin ən qaynar nöqtələrində xidmət göstərib. Tabeliyində olan şəxsi heyətə qayğı ilə yanaşıb, fərdi keyfiyyətləri ilə onlara nümunə olub. Əsgərləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən ədalətli mübarizəyə ruhlandırıb. 1995-ci il oktyabrın 18-də - dövlət müstəqilliyimizin bərpasının üçüncü ildönümü günündə növbəti hərbi tapşırığı yerinə yetirərkən qəhrəmancasına həlak olub.

...Sündü qəbiristanlığında cəmləşən insanlardan qəhrəmanımızla bağlı xatirələrini bölüşməyi xahiş etdik. Əvvəlcə şəhidin atası Adıgözəl Adıgözəlova yaxınlaşırıq. Qəhər atanın boğazını kilidləyir, hiss olunur ki, danışmağa çətinlik çəkir:

- Vallah, nə deyəcəyimi bilmirəm. Allah ona və cəmi şəhidlərimizə rəhmət eləsin. Övlad itkisi nə qədər ağır olsa belə, mənə və anasına təskinlik verən yeganə odur ki, Cəmil torpaqlarımızın bütövlüyü uğrunda canını fəda edib. Bir də onun əsgər yoldaşlarının bizi tez-tez yada salmaları, imkan yarananda ziyarət etmələri qəlbimizi qürur hissi ilə doldurur. Sevinirik ki, cəmiyyətə belə mərd, torpağını, yurdunu sevən övlad bəxş edə bilmişik.

Sündü kənd orta məktəbinin tarix müəllimi İdris Alıcanovun da sevimli şagirdi ilə bağlı deyəcəkləri var:

- Mən Cəmilin tarix müəllimi olmuşam. O, təhsil aldığı dövrlərdə vətənpərvərliyi, qayğıkeşliyi ilə həmişə seçilib. Qarabağ uğrunda döyüşlər başlayanda Cəmil ilklərin cərgəsində olub. Sıravi əsgərdən zabit rütbəsinə qədər yüksəlib. Bununla da doğulduğu kəndə, el-obaya, ailəyə layiq oğul olduğunu təsdiqləyib. Döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Onun xatirəsi bizim üçün həmişə əzizdir. Sündü kənd orta məktəbində kəndin 19 şəhidinin adına təşkil olunmuş xüsusi guşədə Cəmilin də şəkli var. Onların doğum və şəhid olduqları gün mütləq xatırlanır.

1992-ci ildə Cəmilin komandiri olmuş Tapdıq İbrahimov da fikirlərini bölüşür:

- Cəmilin qorxmazlığı, cəsurluğu elə hərbi hissəyə gəldiyi ilk günlərdən duyulurdu. Düşmənə qarşı nifrəti bütün varlığını sarmışdı. Hərb sənətinə marağı, az zamanda hərbi hissənin balansındakı bütün silah növlərini mənimsəməsi komandanlığın diqqətini cəlb etmişdi. Bu keyfiyyətlərinə görə hərbi təhsil alması üçün Bakıya göndərildi. O, xidmət keçdiyi hərbi hissəyə leytenant rütbəsində qayıtdı və mərdliyi, şücaəti ilə seçildi.

Ağdərə ərazisindəki Qırmızıkənd (indi Şikarabad adlanır. Kənd Sündü kəndindən olan Azərbaycanın Milli Qəhrəmanı Şikar Şikarovun adını daşıyır) adlanan yaşayış məntəqəsi uğrunda gedən döyüşlərdə şəhid oldu.

Əslən Laçın rayonundan olan döyüş yoldaşı Bünyad Zamanov da cəbhədaşı ilə bağlı yanğı ilə danışır. Dediyinə görə, Cəmil onlar üçün həmişə nümunə olub. Son dəfə kəşfiyyata gedərkən yağı düşmənin gülləsinə tuş gəlib.

Gədəbəydən olan döyüş yoldaşı Zaur Əhmədov dedi:

- Cəmil bizim üçün o qədər doğmalaşmışdı ki, Gədəbəylə Sündü arasındakı yüzlərlə kilometrlik məsafə olmasına baxmayaraq, heç də bizə uzaq görünmürdü. Çünki bizim daim qəlbimizdə yaşayan silahdaşımız məhz bu eldən, bu obadan çıxıb. Hərbi məktəbə də, son əməliyyata da bir yerdə getmişdik. O, istənilən əməliyyat olan kimi, hətta başqasının növbəsi olsa belə, həmişə qabağa çıxardı. Deyirdi ki, döyüşçü həmişə ön mövqedə olmalı, düşmənə göz dağı verməlidir.

Şəhid soydaşımızın həmkəndlisi Məharət Əkbərov da Cəmildən danışdı. Bildirdi ki, həm orta məktəbi bir yerdə oxuyublar, həm də əsgərlikdə bir yerdə olublar. Onun vətənə, torpağa bağlılığı hər zaman bütün hərəkətlərində, əməllərində özünü göstərib. Həyatını zabit qismində hərbi sahəyə bağlaması da bunların təsdiqidir.

Sadəcə olaraq M.Əkbərov yaralandığı üçün ordudan tez tərxis olunub. Cəmilin kəndə son gəlişini isə heç unutmur. Deyir ki, hamı ilə bir-bir görüşdü, sanki ürəyinə dammışdı ki, bir daha geri qayıtmayacaq...

Ağcabədi rayonunun Yeni Qarabulaq kənd sakini Mirsiyab Abbasov da Cəmillə birlikdə dəfələrlə döyüşdə olduqlarını deyir.

Cəmilin qəhrəmanlıqları qarşısında hər birimiz baş əyirik. Qobustan Rayon İcra Hakimiyyətinin şəhidin adını əbədiləşdirmək üçün rayonun mərkəzi küçələrindən birinə Cəmil Adıgözəlovun adının verilməsi ilə bağlı sərəncamı da var. Bununla yanaşı, ən mühüm məqamlardan biri üstündən 23 il keçəndən sonra belə köhnə silahdaşların bir-birini axtarıb tapması, ailələrinə dayaq olmalarıdır.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatı

Ermənistan kütləvi informasiya vasitələrində verilmiş məlumata əsasən, həmin ölkənin müdafiə naziri vəzifəsinin icraçısı, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri David Tonoyan Azərbaycan tərəfinin əsirlərin dəyişdirilməsinə dair təklifi barədə mətbuatdan oxuduğunu və rəsmi təklif almadıqlarını bildirib.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bildirir ki, 2016-cı il aprelin 29-da Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) ünvanladığı məktubunda hazırda hər iki tərəfdə saxlanılan şəxslərin dərhal azad edilməsi və gələcəkdə əsir-girov götürülən şəxslərin, eyni zamanda, cəsədlərin 3 gündən gec olmayaraq qaytarılması ilə bağlı saziş layihəsinin hazırlanmasını təklif edib. Dövlət Komissiyasından AZƏRTAC-a verilən məlumata görə, BQXK bu təklifin Ermənistan tərəfinə çatdırıldığını və saziş layihəsi üzərində müvafiq iş apardığını bildirib.

Bununla yanaşı, Dövlət Komissiyası Dağlıq Qarabağ münaqişəsi bölgəsində itkin düşmüş şəxslərin axtarışı, əsir-girovların azad edilməsi üzrə Beynəlxalq İşçi Qrupu (BİQ) ilə 2017-ci və 2018-ci illərdə Bakıda keçirdiyi görüşlər zamanı tərəflərdə saxlanılan şəxslərin qısa müddətdə "hamının-hamıya" prinsipi ilə azad edilməsi məsələsini müzakirə edib. Bu təklif son iki ildə Ermənistana və Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə səfər etmiş BİQ həmsədrləri - Bernhard Klazen (Almaniya), Svetlana Qannuşkina (Rusiya) və Paata Zakeriaşvili (Gürcüstan) tərəfindən Ermənistanın müvafiq qurumlarına çatdırılaraq müzakirə edilib. Son dəfə cari ilin oktyabr ayında Ermənistana və işğal olunmuş Dağlıq Qarabağa səfər edən BİQ həmsədrləri Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupu ilə telefon əlaqəsi saxlayaraq, bu ilin noyabr ayının sonunda Gürcüstanın Tbilisi şəhərində hər iki ölkənin dövlət komissiyalarının görüşünün keçirilməsini planlaşdırdıqlarını və müzakirəyə çıxarılacaq mövzuları razılaşdırmaq istədiklərini bildiriblər.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası müzakirəyə çıxarılacaq əsas məsələnin hazırda tərəflərdə saxlanılan şəxslərin qısa müddətdə "hamının-hamıya" prinsipi ilə azad edilməsi mövzusu olacağı təqdirdə, Azərbaycan tərəfinin görüşə hazır olduğunu BİQ həmsədrlərinin diqqətinə çatdırıb.


*Təkrar*

## "Bakı Metropoliteni" QSC müxtəlif növ elektrik mallarının və stansiyalarda təmizlik işləri xidmətinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 20-dən (əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. Müxtəlif növ elektrik mallarının satın alınması**
**LOT-2. "Bakı Metropoliteni" QSC-nin stansiyalarında təmizlik işləri xidmətinin satın alınması**

**İştirak haqqı - LOT-1 - 500 manat**
**LOT-2 - 1000 manat**

**Hesab:** AZ98AZRT38050019440010268002
**VÖEN** 1402871431
**Bank:** AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)
**Kodu:** 501361
**VÖEN:** 9900006111
**M/H:** AZ02NABZ01350100000000022944
**SWIFT:** AZRTAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30 noyabr 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **10 dekabr 2018-ci il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 20 ünvanına "İcraya Nəzarət, kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **11 dekabr 2018-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## *Sumqayıt Şəhər Mədəniyyət və Turizm İdarəsi 2018-ci il 314400 Qeyri-maddi aktivlər xərc maddəsi üzrə*

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 19.11.2018-ci il tarixinədək qəbul olunur. Maraqlanan təşkilatlar 018 655-49-87 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Ünvan: Sumqayıt şəhəri, 3-cü məhəllə, N.Nərimanov, 12**

***Tender komissiyası***

## BİLDİRİŞ

1 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin 2018-ci il üçün "Avadanlıqların texniki baxışı" ilə əlaqədar "Azərbaycan" qəzetində 27 oktyabr 2018-ci il tarixdə dərc olunmuş açıq tender elanında zərflərin açılma tarixində səhvə yol verilmişdir. Bu səbəbdən zərflərin açılma tarixi 20 dekabr 2018-ci il saat 15:00-a təyin edilmişdir.

***Tender komissiyası***


# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR




## SWIFT İran banklarına xidmət etməyəcək

ABŞ-ın antiiran sanksiyalarının ikinci paketi qüvvəyə mindikdən sonra İran bankları SWIFT ödəmə sistemi vasitəsilə beynəlxalq əməliyyatlar həyata keçirmək imkanından məhrum olmuşdur. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Sistemdən çıxarılan banklar artıq xarici ödəniş əməliyyatlarını həyata keçirə bilməyəcək. Bundan əlavə, bir çox ölkələrdə SWIFT formatında həyata keçirilən daxili əməliyyatlarda da problemlər yarana bilər.

SWIFT-dən bildirmişlər ki, bu qərar beynəlxalq bank sisteminin sabitliyinin qorunması naminə qəbul olunmuşdur. Ödəniş sistemindən çıxarılmış bankların adları açıqlanmır.

Xatırladaq ki, ABŞ-ın İrana qarşı sanksiyaları srağagün qüvvəyə minmişdir. Sanksiyalar İrandan neft ixracına və islam respublikasının bank sektoruna şamil olunacaq. Məhdudiyyətlərə 700-dən çox təşkilat və fiziki şəxs məruz qalmışdır.

## Makron Aİ-nin vahid ordusunu yaratmağa çağırır

Avropa Rusiyadan, Çindən və hətta ABŞ-dan müdafiə olunmalıdır. Bu barədə Fransa Prezidenti Emmanüel Makron Europe1 radiostansiyasına müsahibəsində bildirmişdir.

Makronun dediyinə görə, Avropa İttifaqı ölkələri hazırda tez-tez daxili siyasi proseslərə, o cümlədən kiberməkana müdaxilə cəhdləri ilə üzləşir. Bu təhlükədən müdafiə olunmaq üçün Fransa lideri Avropada Vaşinqtonun müdaxiləsi olmadan fəaliyyət göstərəcək ümumi ordu yaratmağı təklif etmişdir: "Biz əsl ümumavropa ordusu yaratmaq qərarına gəlməsək, avropalıları müdafiə edə bilməyəcəyik. Avropa əsasən müstəqil şəkildə, ABŞ olmadan özünü müdafiə edə bilməlidir".

ABŞ-ın siyasəti barədə danışan Makron həmçinin bildirmişdir ki, Donald Trampın Rusiya ilə ortamənzilli və kiçikmənzilli raketlər barədə müqavilədən çıxmaq qərarı Avropanın təhlükəsizliyinə təhdid yaradır: "Bu gün biz tez-tez kiberməkanımıza və demokratik həyatımıza müdaxilə cəhdləri görürük. Biz müdafiə olunmalıyıq! Çindən, Rusiyadan və hətta ABŞ-dan".

## Tramp seçkilərdə respublikaçıların qələbəsinə şübhə etmir

Dünən ABŞ-da keçirilmiş aralıq seçkiləri zamanı vətəndaşlar 100 senatordan 35-i, Nümayəndələr Palatasının bütün 435 üzvünü, ştatların və ərazilərin 39 qubernatorunu, habelə ştatların qanunvericilik məclislərinin 6073 üzvünü seçmişlər. Bu seçkilərin nəticələri respublikaçıların uğurunun indikatoru və ölkədə prezident seçkiləri keçiriləcək 2020-ci il üçün proqnoz olacaq.

Konqresə seçkilər ərəfəsində ABŞ Prezidenti Donald Tramp respublikaçıların qalibiyyətinə əminliyinin səbəbi barədə danışmışdır. O, "Fox News" telekanalına müsahibəsində bildirmişdir ki, seçkilərdən sonra ölkəni maliyyə sahəsində uğur dövrü gözləyir və bu, cəmiyyət üçün birləşdirici amil olacaq. "Əvvəlcə biz seçkiləri keçirməliyik. Bu, maraqlı dövr olacaq. Sonra isə maliyyədə, iqtisadiyyatda uğur dövrü gələcək. Fikrimcə, bu, çoxlarını birləşdirəcək" deyə Tramp vurğulamışdır. Prezident həmçinin xatırlatmışdır ki, onun administrasiyası fəal şəkildə silahlı qüvvələrin qüdrətini bərpa edir.

ABŞ lideri qeyri-leqal immiqrasiya probleminə də toxunmuşdur. Trampın dediyinə görə, qeyri-leqallar ölkəyə 100 milyard dollara başa gəlirlər və sərhəddə divar tikmək bundan xeyli ucuzdur: "Biz bu qanunları dəyişdirmək istəyirik və bunu etmək üçün bizə demokratların səsləri lazımdır. Lakin onlar bu səsləri bizə vermək niyyətində deyillər. Konqresə kifayət qədər respublikaçı seçə bilsək, bizim lazımi qədər səsimiz olacaq".

## İraqda İŞİD qurbanlarının 200-dən çox məzarı tapıldı

İraqın İŞİD terrorçu qruplaşmasının nəzarətində olmuş regionlarında 200-dən çox kütləvi məzar aşkar edilmişdir. Bu barədə BMT-nin İnsan hüquqları üzrə ali komissarının idarəsinin təqdim etdiyi hesabatda məlumat verilir.



Sənəddə qeyd olunur ki, İraq hökumətinin məlumatlarına əsaslanan BMT-nin mütəxəssisləri 202 kütləvi məzar yeri qeydə almışlar. Onların əksəriyyəti Neynəva (95), Kərkük (37), Səlahəddin (36) və Ənbar (24) əyalətlərindədir. Həmin məzarlarda 6 mindən 12 minədək adamın basdırıldığı bildirilir. Ekspertlər hesab edirlər ki, adıçəkilən regionlarda hələ bir çox məzar ola bilər.

Dəfn olunanlar arasında qadınlar, uşaqlar, ahıllar, məhdud imkanlı adamlar, iraqlı hərbçilər və polislər, bəzi əcnəbi əməkdaşlar var. İndiyədək 23 məzar açılmış, mütəxəssislər onlardan 1258 cəsəd çıxarmışlar.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədovaya əzizi

**ALİM BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Memarlıq və İnşaat Universitetinin tədris işləri üzrə prorektoru Akif Qasımova anası

**ZALMI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Mərkəzi Bankın baş direktoru Ziya Əliyevə atası

**ZƏFƏR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədovaya əzizi

**ALİM BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Mərkəzi Bankın baş direktoru Ziya Əliyevə atası

**ZƏFƏR ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncədən Tapdıq Mahmudov, Rauf Rzayev, Kəramət Əliyev və Vəli Abdullayev Samux Rayon Polis Şöbəsinin rəisi Akif Nəbiyevə anası

**HƏCƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Quba Rayon Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Xəqani Tağıyevə bacısı

**ULDUZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mərkəzi Neftçilər Xəstəxanasının kollektivi xəstəxananın həkim-statistiki Xatirə Lütfəliyevaya həyat yoldaşı

**ELMAN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kürdəmir Rayon Məhkəməsinin sədri Müseyib Bayramov və məhkəmənin kollektivi Quba Rayon Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Xəqani Tağıyevə bacısı

**ULDUZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8402
Sifariş 3296